YENİ AZƏRBAYCAN
27 noyabr 2025-ci il, cümə axşamı
№ 216 (7043)
Qiyməti 60 qəpik
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.



Milli azadlıqdan şirin nemət yoxdur!

# Yeni Avrasiya arxitekturasının ritmi Cənubi Qafqazda tənzimlənir



# Bakı qlobal səhnədə: təhlükəsizlik, enerji və dialoq üçbucağının mərkəzi

Bax səh. 3

## Qlobal təhlükəsizlik sistemi: Azərbaycanın rolu artır

Bax səh. 2





Bax səh. 4

## Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Kuba Respublikasına səfər edib

## Daha operativ, dəqiq və şəffaf qiymətləndirmə

Bax səh. 2

## Azərbaycan-Vatikan münasibətləri...

Bax səh. 5

## Həmrəylik forumu...

Türk dövlətləri QHT-lərinin forumu cəmiyyətlərimiz arasında birliyi daha da gücləndirəcək

Bax səh. 5

## ABŞ sülhə nail olmaq istəyir, Aİ tələblərini irəli sürür

Bax səh. 6



## Qahirə konfransı niyə təxirə salındı?

Bax səh. 7

## Minnətdarlıq duyğusu...

Şükranlıq bayramının maraqlı ənənələri

Bax səh. 8

# Qlobal təhlükəsizlik sistemi: Azərbaycanın rolu artır

Cari il sentyabrın 21-də "Terror aktları və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının birgə fəaliyyəti" mövzusunda keçirilmiş III Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciəti BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədi kimi qeydiyyata alınaraq yayımlanıb.

Forumun builki plenar iclası Bakı Təhlükəsizlik Forumunun Əsasnaməsinin və Bəyannaməsinin qəbul edilməsi, həmçinin ümumi razılıq əsasında dünyada ilk dəfə xüsusi xidmət və təhlükəsizlik orqanları arasında 24/7 rejimli Antiterror İnformasiya Mübadiləsi Sisteminin yaradılmasının qərara alınması ilə yadda qalıb.

## Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsi BMT-nin sənədi kimi yayımlanıb

### Unikal formata malik Bakı təhlükəsizlik platforması

Məlumatda da bildirldiyi kimi, III Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsinin və Azərbaycanın dövlət başçısının tədbir iştirakçılarına müraciətinin BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədi kimi qeydiyyata alınaraq yayımlanması Bakı Təhlükəsizlik Forumunun təhlükəsizlik sahəsində artan əhəmiyyətindən, beynəlxalq institusional-hüquqi perspektivindən xəbər verir.

Bakı Təhlükəsizlik Forumu dünyada həssaslıqla izlənilən indiki dövrün çağırışlarına uyğun olaraq bir növ zərurətdən yaranıb. XXI əsrin başlanğıcından etibarən qlobal güc mərkəzləri arasında geosiyasi ziddiyyətlərin dərinləşməsi fonunda dünyanın müxtəlif bölgələrində hərbi toqquşmaların baş verməsi, terrorçu qruplaşmaların fəallaşması, beynəlxalq təhlükəsizlik sisteminə yönəlmiş təhdidlərin artması dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsini şərtləndirib. Bu kontekstdə beynəlxalq və regional müstəvilərdə daim sülh və əmin-amanlığın bərqərar olunması istiqamətində təşəbbüslərlə çıxış edən Azərbaycan qlobal təhdidlərə qarşı birgə fəaliyyətin təşviqi məqsədilə beynəlxalq təhlükəsizliyin qorunub saxlanılmasında misilsiz rol oynayan kəşfiyyat və təhlükəsizlik orqanlarını vahid platformada cəmləşdirməyi məqsədəuyğun hesab edib. Beləliklə, konstruktiv dialoq, qarşılıqlı anlayış və faydalı əməkdaşlıq prinsiplərinə söykənən Bakı Təhlükəsizlik Forumu təsis olunub. Bakı Təhlükəsizlik Forumu müxtəlif siyasi mövqelərə malik ölkələrin bir araya gələrək fikir ayrılıqlarını, regional və beynəlxalq münaqişələri qarşılıqlı anlayış əsasında müzakirə etmələrinə əlverişli şərait yaradan platformadır.

I Bakı Təhlükəsizlik Forumu Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2023-cü il may ayının 3-də təşkil olunub. Dünya ölkələrinin kəşfiyyat və təhlükəsizlik orqanlarının rəhbərlərinin və yüksək səviyyəli nümayəndələrinin qatıldığı müvafiq forum çərçivəsində plenar iclasla yanaşı, ikitərəfli və çoxtərəfli görüşlər baş tutub. "Proksi şəbəkələrin destruktiv fəaliyyətinə qarşı birgə mübarizə" mövzusunda keçirilmiş iclas müasir Azərbaycanın banisi, Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunub. Bu, heç də təsadüfi deyil. Belə ki, Heydər Əliyev Azərbaycanın Prezidenti olduğu dövrdə Cənubi Qafqazda atəşkəsin əldə olunmasına nail olmaqla yanaşı, qatıldığı çoxsaylı beynəlxalq tədbirlərdə, eləcə də iştirak etdiyi ikitərəfli və çoxtərəfli görüşlərdə beynəlxalq təhlükəsizliyin gücləndirilməsinə böyük töhfələr verib.

İştirakçılar tərəfindən tədbirə böyük marağın göstərilməsi əsas götürülərək, 2024-cü il sentyabr ayının 15-də "Qlobal nəqliyyat şəbəkələrinin təhlükəsizliyinə yönələn müasir çağırışlar" mövzusunda II Bakı Təhlükəsizlik Forumu təşkil olunub. Forumun mövzusu ilə bağlı iştirakçı dövlətlərin xüsusi xidmət orqanlarını təmsil edən nümayəndələr tərəfindən çıxışlar edilib, həmçinin ikitərəfli və çoxtərəfli görüşlər keçirilib.

Sentyabrın 21-də baş tutan III Təhlükəsizlik Forumu dünyada Bakı platformasına artan marağı əyani şəkildə təsdiqlədi. Belə ki, builki tədbir 90-a yaxın ölkənin xüsusi xidmət orqanlarının rəhbərlərinin və yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə baş tutub. Tədbirdə həmçinin BMT-nin təhlükəsizlik sahəsində aidiyyəti strukturları təmsil olunub. Foruma olan marağın ildən-ilə artması müzakirəyə çıxarılan mövzuların vacibliyini əyani şəkildə əks etdirir. Prezident İlham Əliyev tədbir iştirakçılarına müraciətində qlobal arenada kəskinləşən geosiyasi ziddiyyətlər fonunda beynəlxalq təhlükəsizlik sisteminin qorunub saxlanılmasında vacib rolu olan təhlükəsizlik və kəşfiyyat qurumlarının təmsilçilərini bir araya gətirən Bakı Təhlükəsizlik Forumunun davam etdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyinə xüsusi diqqət çəkib. "Bakı Təhlükəsizlik Forumu qlobal və regional təhdid və risklərin müəyyənləşdirilməsi, onların neytrallaşdırılması yollarının araşdırılması baxımından unikal formata malik beynəlxalq tədbirdir", - deyə dövlətimizin başçısı vurğulayıb.



### Qarşılıqlı etimad və əməkdaşlıq məkanı

Hazırda dünya olduqca narahat bir dönəmdən keçir. Gah bu, gah da digər bir regionda alovlanan qanlı müharibələr öz arxasınca böyük fəlakətlər gətirir. Silahlı toqquşmaların nəticəsi olaraq milyonlarla insan həyatını itirir, həmçinin humanitar böhranlara, texnogen qəzalara, ekoloji fəlakətlərə zəmin yaranır. Bu gün Yaxın Şərq, Şərqi Avropa qan içindədir və bu bölgələrdə insanlıq faciəsi yaşanır. Açıq-aydın görünür ki, beynəlxalq hüquq işləmir, güc amili önə çıxıb, milli dövlətlərə təhdidlər artıb. Baş verənlər zəncirvari proseslərə səbəb olur. Belə ki, müharibə risklərinin artdığı bir şəraitdə terrorçu təşkilatların yenidən fəallaşması müşahidə edilir. Sürətli texnoloji inkişaf, innovasiyaların həyatımıza daxil olması bütövlükdə müsbət haldır. Narahatlıq yaradan cəhət isə odur ki, 4-cü Sənaye inqilabı dönəmində kibertəhlükəsizlik cinayətlərinin sayı getdikcə artır və bir növ qlobal xarakter alır. Paralel şəkildə, dini ekstremizm, separatçılıq, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya və silah qaçaqmalçılığı kimi hüquqazidd əməllərin əhatə dairəsinin genişləndiyi müşahidə edilir. Bütün bunlar beynəlxalq təhlükəsizlik sisteminə sarsıdıcı təsir göstərir. Belə vəziyyətdə dünya birləşməlidir. Burada Azərbaycanın qətiyyətli mövqeyi ondan ibarətdir ki, qlobal təhdidlər qarşısında beynəlxalq həmrəylik daha da gücləndirilməlidir. Respublikamız öz mövqeyini ardıcıl şəkildə atdığı addımlarla, unikal yanaşmaları ilə təsdiqləyir. Ölkəmiz qlobal pandemiya dönəmində yardıma ehtiyac duyan ayrı-ayrı dövlətlərə, Ümumdünya Səhiyyə Təşkilatına ciddi dəstək verib. İndiyədək Azərbaycan hərbçiləri Kosovada, Əfqanıstanda beynəlxalq sülhməramlı qüvvələrin fəaliyyətinə qoşulublar və nümunəvi xidmət göstəriblər. Ötən il Bakının nümunəvi qaydada ev sahibliyi etdiyi COP29 konfransı qlobal ekoloji təhdidlərə Azərbaycanın son dərəcə həssas yanaşmasının növbəti təsdiqinə çevrildi. Həmçinin ölkə daxilində uzunmüddətli sabitlik təmin olunub, burada milli-dini-irqi zəmində hər hansı bir münaqişə yaşanmır, müvafiq qurumlar hüquqpozma hallarına qarşı ciddi mübarizə aparırlar və terrorçuluğa meydan yoxdur.

Bu gün Azərbaycan Avrasiyada və daha geniş coğrafiyada körpülər yaradan ölkə qismində çıxış edir. Respublikamız 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazandığı parlaq qələbələr sayəsində regionda terror təhdidlərinə, separatizm meyllərinə, müharibə risklərinə son qoyub. Postmüharibə dövründə qalib Azərbaycanın ciddi səyləri ilə başlayan sülhyaratma prosesi cari il avqustun 8-də Vaşinqtonda əldə olunan mühüm razılaşmalarla keyfiyyətcə yeni bir mərhələyə keçid alıb. Azərbaycan regionda müharibə səhifəsini birdəfəlik bağlamaq və gələcəyə baxmaq əzmi nümayiş etdirir. Vaşinqton görüşü bir daha təsdiqlədi ki, dünya Azərbaycanın regionda etimad quruculuğunu hədəfləyən səylərini və sülh gündəliyini yüksək dəyərləndirir. Bu kontekstdə dünyanın bütün qitələrindən müxtəlif ölkələri təmsil edən xüsusi xidmət orqanı rəhbərlərinin və təhlükəsizlik məsələləri üzrə ekspertlərin ümumi təhdidlərlə mübarizə məqsədilə hər il Bakıda toplaşması ənənəsinin yaranması forumun timsalında Bakının qarşılıqlı etimad və əməkdaşlıq məkanı olmasının bariz nümunəsidir.

*Mübariz ABDULLAYEV*

# Daha operativ, dəqiq və şəffaf qiymətləndirmə



**Prezident İlham Əliyev "Ərzaq təminatı xəritəsi" informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında fərman imzalayıb. Sənədə əsasən, ölkəmizdə "Ərzaq təminatı xəritəsi" informasiya sistemi yaradılacaq. İnformasiya sistemi ərzaq təminatı sahəsində mövcud vəziyyəti təhlil edərək bunun əsasında etibarlı və dayanıqlı informasiya bazası formalaşdıracaq, habelə bazada toplanmış informasiyaların köməyilə digər müvafiq qurumların ərzaq ehtiyacı və təminatı barədə məlumatlara əlçatanlığı təmin olunacaq. Nəticədə Azərbaycanın ərzaq mallarına dair bütün zəruri informasiyalar vahid datada toplanmaqla ərzaq təhlükəsizliyi strategiyasının mühüm qolu kimi illik məlumatlar üzrə qərarların qəbul edilməsinə imkan yaranacaq. Bu prosesdə əlaqələndirici dövlət qurumlarından biri kimi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi sistemin "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsini, habelə sistemin "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsini təmin edəcək.**

## "Ərzaq təminatı xəritəsi" sistemi ərzaq məhsulları ilə təminat səviyyəsinin qiymətləndirilməsində mühüm informasiya mənbəyi olacaq

Platforma ərzaq təminatı üzrə statistika və balansının daha da dürüstləşməsi, şəffaf informasiya datasının formalaşmasında mühüm rol oynayacaq. Ərzaq balansının bütün bölmələri, o cümlədən, bitkiçilik və heyvandarlıq məhsulları, sənaye emalı, yeyinti və ərzaq məhsullarının ehtiyatları və istifadəsinə dair statistik məlumatlar tam dəqiqliklə və kəmiyyətlər üzrə vahid informasiya bazasında toplanmaqla, dövlət qurumları arasında məlumat mübadiləsi güclənəcək. Belə ki, istehsal edilən ərzaq mallarının həcmi və dövriyyəsi, xaricdən idxal edilən yeyinti məhsullarının həcmi və dəyəri, habelə ərzaq xammalı üçün xaricdən gətirilən komponentlər, idxal və ixrac dinmaikası, bir sözlə, ərzaq istehsalı zəncirinə dail olan bütün faktorlar informasiya blokunda təsnifləşdirilərək yekun balans məlumatları əldə ediləcək.

Bu əlaqələndirmə siyasəti sayəsində müvafiq qurumlar hər nəfərə düşən gündəlik ərzaq istehlakı normasını da tam müəyyən edəcək və ərzaq təminatı ilə bağlı qərarların daha səmərəli şəkildə qəbuluna şərait yaranacaq. Nəticədə yerli istehsalın dəstəklənməsi, daxili bazarın tələbatının düzgün qiymətləndirilməsi və ərzaq məhsullarının yerli payının artırılması baxımından da yeni imkanlar açılacaq.

### Ərzaq təminatı ilə bağlı risklər daha tez müəyyən ediləcək

Dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsi və ərzaq bazarının tənzimlənməsində səmərəli istehsal-tədarük-satış siyasəti həyata keçirməsi mühüm əhəmiyyət kəsb edir. Qlobal və regional səviyyələrdə ərzaq təchizatı sistemlərində pozulmaların baş verməsi və digər amillər milli ərzaq təhlükəsizliyi məsələlərini daha da aktuallaşdırır və ölkənin ərzaq balansı göstəricilərini tam dəqiqliklə müəyyənləşdirən informasiya sisteminin yaradılmasını ön plana çıxarır. Bu baxımdan yetkin və yığcam informasiya bazası sayəsində makro və mikro səviyyədə məlumatları təhlil etməklə ərzaq təchizatı sayəsində riskləri daha tez və operativ həll etmək mümkün olur. Milli ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində fəaliyyət göstərən, dövlət, özəl və xarici biznes sektorunun təmsilçiləri arasında qarşılıqlı informasiya mübadiləsi mexanizmi qurulur, qiymətlənmə üzrə vahid strategiya formalaşır. Bu isə ərzaq təminatı üçün qabaqlayıcı addımların atılmasını, istehsal-idxal infrastrukturunu qurmaqda əhəmiyyət kəsb edir.

Bu meyarları nəzərə aldıqda "Ərzaq sistemi xəritəsi" ümumi olaraq ərzaq təhlükəsizliyi ilə bağlı strateji məqsədlərə çatmaqda yeni innovasiya aləti hesab edilə bilər.

### Düzgün və səhih məlumatlar istehsalı optimallaşdıracaq

Həmçinin, aqrar sektora dövlət dəstəyi tədbirləri çərçivəsində güzəştli kreditlərin və subsidiyaların verilməsində sahələrarası dəyər əsasında düzgün qiyməti və məbləği də təyin edəcək. Dolğun və səhih məlumatlar həm istehsalçıların, həm də dövlət strukturlarının fəaliyyətinin optimallaşdırılmasına xidmət edəcək, hərtərəfli və geniş məlumat bazası əsasında təhlil və proqnozlşadırma işinin səmərəliliyi artacaq ki, bu da aqrar-sənaye kompleksinin bütün iştirakçıları üçün yol xəritəsini müəyyənləşdirəcək.

Nəticə etibarilə informasiya sistemi Azərbaycanda əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin qiymətləndirilməsini təmin etməklə, ərzaq təhlükəsizliyinin gücləndirilməsində mühüm mənbə rolunu oynaycaq.

### Qlobal Ərzaq Təhlükəsizliyi İndeksində mövqeyimiz daha aydın olacaq

Ərzaq əlçatanlığının mikro və makro səviyyələrdə iqtisadi qiymətləndirilməsi, qidalanma üzrə etibarlı və təhlükəsiz informasiya sisteminin yaradılması həm də beynəlxalq təsisatlar tərəfindən irəli sürülən əsas meyarlardan biridir. Ərzaq göstəriciləri datası dünya ölkələrinin qlobal indekslərdə reytinq indeksinin müəyyən edilməsində də başlıca rol oynayır. Bu göstəricilər əsasında Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi (QƏTİ) müəyyənləşdirilir. Həmin meyar, həmçinin ərzaq məhsullarının təhlükəsizliyi indeksi də daxil olmaqla ərzaq təhlükəsizliyinin hərtərəfli qiymətləndirilməsini özündə əks etdirir. QƏTİ milli və beynəlxalq statistik mənbələrdən, o cümlədən Dünya Bankı, FAO, Dünya Səhiyyə Təşkilatı, Ümumdünya Ticarət Təşkilatı, Dünya Resursları İnstitutundan alınan məlumatlara əsaslanır və 58 fərqli indikator əsasında qurulur. Nəticədə, ərzaq məhsullarının əlçatanlığı göstəricisi təyin edilir. Göründüyü kimi, ərzaq təminatı üzrə güclü informasiya sisteminin yaradılması Azərbaycanın beynəlxalq səviyyədə indekslər üzrə ətraflı məlumatlara çıxışını da təmin edəcək, mövqeyini daha da yaxşılaşdıracaq.

Beləliklə, "Ərzaq təminatı xəritəsi" informasiya bazası ərzaq təminatı və ərzaq təhlükəsizliyi ilə bağlı məlumatların vahid platformada toplanmasını, sistemləşdirilməsini və xəritə formasında təqdim edilməsini təmin etməklə, daha operativ, dəqiq və şəffaf qiymətləndirilməyə imkan yaradacaq.

*E.CƏFƏRLİ*

# Yeni Avrasiya arxitekturasının ritmi Cənubi Qafqazda tənzimlənir

## Bakı qlobal səhnədə: təhlükəsizlik, enerji və dialoq üçbucağının mərkəzi

Müasir qlobal sistemin strukturunda baş verən dəyişikliklər özündə genişmiqyaslı geosiyasi yenilənməni ifadə edir. Dünya iqtisadiyyatının rəqəmsallaşması, enerji sektorunda yeni balansın formalaşması, istehsal və ticarət marşrutlarının Şərqə doğru sürətlə yönəlməsi Avrasiyanın strateji çəkisini artırıb. Bu yeni konfiqurasiyada Azərbaycanın mövqeyi regionun adi tranzit ölkəsindən qlobal proseslərin koordinasiya mərkəzinə çevrilməsi ilə xarakterizə olunur. Bakı artıq kompleks geoiqtisadi modellərin tətbiq olunduğu, təhlükəsizlik və logistik inteqrasiyanın paralel şəkildə reallaşdığı mühüm strateji platformadır.

Günümüzün dinamikası göstərir ki, Avrasiyanın gələcək iqtisadi arxitekturası müxtəlif qütblər arasında rəqabət deyil, əlaqələndirmə üzərində qurulacaq. Bu mənada Azərbaycan həm Şərq istehsal sistemləri, həm də Qərb texnoloji və maliyyə mərkəzləri arasında optimal sintez yaradan unikal mövqeyə malikdir. Orta Dəhlizin genişlənməsi, Rəqəmsal İpək Yolunun formalaşması, yeni liman-logistika zəncirinin sürətlə inkişafı Azərbaycana yalnız tranzit deyil, tənzimləyici rol qazandırır. Bu rol həm də Bakının təhlükəsizlik konsepsiyası ilə uzlaşır: regionda siyasi sabitliyin bərpası, sərhəd-kommunikasiya risklərinin aradan qaldırılması və inteqrasiya yönümlü diplomatiyanın gücləndirilməsi Avrasiyanın bütöv inkişaf modelinə xidmət edir.

Nəticə etibarilə Bakı bu gün Avrasiyanın geoiqtisadi məntiqini müəyyən edən əsas aktorlardan birinə çevrilir. Azərbaycanın çoxşaxəli tərəfdaşlıq siyasəti, yeni kommunikasiya arxitekturası və təhlükəsizlik modelinin effektivliyi onun qlobal sistemdə strateji mərkəz rolunu daha da gücləndirir.

### Yeni qlobal situasiyada...

Vurğulandığı kimi, XXI əsrin ikinci onilliyindən başlayaraq dünya iqtisadiyyatında və siyasətində müşahidə olunan dəyişikliklər artıq qlobal məzmun daşıyır. Rəqəmsallaşma, süni intellektin iqtisadi proseslərə təsiri, enerji bazarlarının yenidən formalaşması, hibrid təhlükəsizlik təhdidlərinin artması və qlobal ticarət yollarının dəyişməsi Avrasiyanın geosiyasi mənzərəsini dərin surətdə transformasiya edir. Bu transformasiyanın ən mühüm mərkəzlərindən biri isə Bakı olaraq qalır.

Rəsmi Bakı müasir çağırışları sadəcə izləməklə kifayətlənmir, onları əvvəlcədən qiymətləndirərək çevik şəkildə siyasi, iqtisadi və diplomatik xəttinə tətbiq edir. Burada əsas faktor Azərbaycanın həm Şərq, həm Qərb, həm də Mərkəzi Asiya ilə paralel strateji tərəfdaşlıqlar qurmasıdır. Bu əlaqələr statik deyil, dinamik xarakter daşıyır və Bakı bu dinamikanı idarə etmək bacarığı ilə qlobal səviyyədə fərqlənir.

Bu gün dünyanın ən vacib suallarından biri budur: yeni iqtisadi sistem hansı mərkəz üzərindən formalaşacaq? Şərq mərkəzli yeni istehsal məntiqi və Qərb mərkəzli ənənəvi istehsal arasındakı körpü rolunu oynayan məkanlar böyük üstünlüklər əldə edir. Məhz burada Azərbaycan unikallığı ortaya çıxır: ölkəmiz bu iki qütb arasında real, işlək, təhlükəsiz və beynəlxalq səviyyədə qəbul edilən əlaqə modelini formalaşdıran azsaylı ölkələrdəndir.

Rəqəmsal İpək Yolunun Azərbaycandan keçməsi, Orta Dəhlizin əsas logistik mərkəz funksiyalarının Bakı və ətrafında cəmlənməsi, Azərbaycanın müasir liman-körpü infrastrukturunu Qərbin enerji təhlükəsizliyi sistemi ilə birləşdirməsi yeni əlaqə fəlsəfəsini yaradır. Bu fəlsəfənin mahiyyəti davamlılıq və ardıcıllıq üzərində qurulur. Yəni Azərbaycan qlobal iqtisadiyyatın yeni tənzimləyici prinsiplərini reallaşdırır. İqtisadi əlaqələrin güclənməsi paralel olaraq siyasi əlaqələrin dərinləşməsi ilə inkişaf edir:

- Mərkəzi Asiya ilə Qərb arasında dialoqun genişlənməsi;
- Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın dərinləşməsi;
- Çinlə iqtisadi əlaqələrin sistemli şəkildə böyüməsi;
- Avropa ilə enerji və logistika istiqamətində yeni müqavilələrin imzalanması.

Bütün bunlar Bakının yaratdığı müasir kommunikasiya arxitekturasının göstəricisidir. Azərbaycanın əsas fərqi ondan ibarətdir ki, o, münasibətləri təkcə möhkəmləndirmir, paralel olaraq yeni danışıq masaları yaradır, müxtəlif güclər arasında balans tənzimləyir və qlobal oyunçuların maraqlarını kəsişdirən neytral platformaya çevrilir. Bu proses Bakının Avrasiyadakı sistemləşdirici funksiyasını daha da gücləndirir.



### Sabitlik zərurəti: qitənin qovşağında yeni təhlükəsizlik arxitekturası...

**Bakı bu gün Avrasiyanın geoiqtisadi məntiqini müəyyən edən əsas aktorlardan birinə çevrilir. Azərbaycanın çoxşaxəli tərəfdaşlıq siyasəti, yeni kommunikasiya arxitekturası və təhlükəsizlik modelinin effektivliyi onun qlobal sistemdə strateji mərkəz rolunu daha da gücləndirir**

Müasir dünyanın ən diqqətçəkən reallıqlarından biri odur ki, artıq ənənəvi siyasi müdaxilə metodları tədricən öz aktuallığını itirir. Qlobal münasibətlər sistemi elə sürətlə inteqrasiya olunur ki, dünyanın istənilən regionunda baş verən kiçik böhran belə geniş coğrafiyada domino effekti yarada bilir. Buna görə də münaqişələr, qeyri-sabitlik, təhlükəsizlik boşluqları artıq təkcə siyasi problem deyil - bu, iqtisadiyyatı, energetikanı, logistikanı çökdürə biləcək riskə çevrilib. Bu yeni dövrdə sabitlik artıq üstünlük deyil, məcburi şərtdir. Məhz buna görə də Azərbaycan bu gün Avrasiyanın təhlükəsizlik arxitekturasında əvəzolunmaz mövqe qazanır.

Rəsmi Bakı 2020-ci ildən sonra regionda yaratdığı yeni reallıqla Cənubi Qafqazda təhlükəsizlik konturlarını tamamilə yenidən formalaşdırdı. Bölgədə artıq müharibə riski demək olar ki, aradan qaldırılıb, separatizm məhv edilib. Ən əsası, Ermənistanın destruktiv siyasətdən uzaqlaşması üçün real mexanizm formalaşdırılıb. Azərbaycanın təhlükəsizlik fəlsəfəsi təkcə hərbi gücə əsaslanmır; bu fəlsəfə iqtisadi əlaqələr sisteminin qurulmasını, enerji davamlılığını və kommunikasiya marşrutlarının şaxələndirilməsini özündə ehtiva edir. İki qitənin qovşağında yerləşən Azərbaycan həm Avropanın enerji təchizatında, həm də Orta Dəhliz boyunca yüklərin təhlükəsiz taşınmasında əsas zəmanətçi ölkə kimi qəbul edilir. Sabitliyin zərurət olduğu coğrafiyada dünyanın güclü aktorları - Avropa İttifaqı, Çin, Türkiyə, Mərkəzi Asiya ölkələri Azərbaycanla əməkdaşlığı prioritet elan edirlər. Çünki bu əməkdaşlıq təkcə iqtisadi deyil, həm də təhlükəsizlik baxımından əsaslı mexanizm formalaşdırır. Bu, Azərbaycanın Avrasiyanın "heartland"ı statusunun əsas şərtlərindən biridir: Bakı təkcə coğrafi mərkəz deyil, həm də təhlükəsizlik məntiqinin mərkəzidir.

### Bakının yeni qlobal missiyası...

**Bu gün dünyanın ən vacib suallarından biri budur: yeni iqtisadi sistem hansı mərkəz üzərindən formalaşacaq? Şərq mərkəzli yeni istehsal məntiqi və Qərb mərkəzli ənənəvi istehsal arasındakı körpü rolunu oynayan məkanlar böyük üstünlüklər əldə edir. Məhz burada Azərbaycan unikallığı ortaya çıxır: ölkəmiz bu iki qütb arasında real, işlək, təhlükəsiz və beynəlxalq səviyyədə qəbul edilən əlaqə modelini formalaşdıran azsaylı ölkələrdəndir**

XXI əsrdə dialoq sadəcə diplomatik termin deyil, həm də sivilizasiyaların bir-birini anlamaq, mədəniyyətlərin qarşılıqlı inteqrasiya imkanı qazanmaq, xalqların birgə yaşayış fəlsəfəsini formalaşdırmaq üçün əsas platformadır. Qlobal böhranların, siyasi gərginliklərin, geosiyasi parçalanmaların sürətlə artdığı bir vaxtda dövlətlər arasında etimadın bərpası, fərqli ideoloji sistemlər arasında körpülərin qurulması həyati vacib zərurətə çevrilir. Bu mənada Bakı artıq uzun illərdir ki, sivilizasiyalararası dialoq və əməkdaşlıq məkanının ən nüfuzlu mərkəzlərindən biridir. Dünyanın aparıcı vətəndaş platformaları, dini liderləri, beynəlxalq təşkilatlar, müxtəlif regionların nümayəndələri Bakını dialoq ünvanı kimi qəbul edir. Bunun səbəbi Azərbaycanın tarixən müxtəlif mədəniyyətlərin qovuşduğu məkan olması, tolerantlıq mühitinin isə bu torpaqlarda ənənə şəklində formalaşmasıdır.

Bakının dialoq siyasətinin ən mühüm komponentlərindən biri Azərbaycanın tolerant yanaşmasıdır - biz bütün tərəfləri dinləməyi, ortaq məxrəc tapmağı və kompromis hazırlamağı bacarırıq. Bu gün Qərb və Şərq ideoloji blokları arasında kəskin gərginliyin mövcud olduğu şəraitdə Bakının müstəqil və neytral platforma kimi həm siyasi, həm iqtisadi, həm də mədəni dialoqu inkişaf etdirməsi, hətta vasitəçiyə çevrilməsi bir həqiqətdir.

Bunun ən bariz nümunəsi Azərbaycan tərəfindən keçirilən Qlobal Bakı Forumu, Humanitar Zirvə, BMT Sivilizasiyalar Alyansının yüksək səviyyəli tədbirləri, Türk Dövlətləri Təşkilatının toplantıları, hətta fərqli ideoloji baxışa malik ölkələrin rahat dialoq qurmaq imkanı qazanmasıdır. Azərbaycan dialoqu sadəcə ideoloji konsepsiya kimi deyil, praktiki əməkdaşlıq modeli kimi reallaşdırır. Bu model nəticə verir - bölgədə siyasi proseslər daha rasional xətt üzrə hərəkət edir, ölkələr arasında etimad artır, iqtisadi layihələr isə daha geniş miqyas qazanır.

Beləliklə, Bakı artıq bir çox aspektdən bu gün təkcə Cənubi Qafqazın deyil, bütün Avrasiyanın geostrateji mərkəzinə çevrilib. Azərbaycan siyasi sabitliyin təminatçısı, qlobal logistik şəbəkələrin ayrılmaz həlqəsi, enerji təhlükəsizliyinin əsas dayağı və müxtəlif sivilizasiyaları birləşdirən dialoq platforması rolunu uğurla icra edir.

### Avrasiyanın ritmini müəyyən edən paytaxt...

Əgər "heartland" anlayışı tarixi nəzəriyyələrdə qitələrin mərkəzi hissəsinə nəzarəti ifadə edirdisə, bu gün həmin nəzarət təkcə coğrafi deyil, həm də siyasi, iqtisadi, mədəni və diplomatik məna kəsb edir. Azərbaycan məhz bu çoxşaxəli funksiyaları yerinə yetirdiyi üçün Avrasiyanın yeni mərkəzi kimi çıxış edir.

Bakı bu gün:

- Şərq ilə Qərbi iqtisadi və siyasi xətt üzrə birləşdirir;
- Mərkəzi Asiyanı Avropa ilə bağlayır;
- Regionda qlobal təhlükəsizlik konturlarını formalaşdırır;
- Yeni dialoq və tərəfdaşlıq arxitekturası yaradır;
- sabitlik və davamlı inkişafın əsas təminatçısına çevrilir.

Bu səbəbdən Bakı bu gün sadəcə Azərbaycanın paytaxtı kimi deyil, bütövlükdə Avrasiyanın ritmini müəyyən edən, qitələrin inkişaf tempini tənzimləyən, iqtisadi və siyasi güc mərkəzlərini birləşdirən qlobal aktorlardan biri kimi tanınır və qiymətləndirilir. Bir sözlə, Bakı həqiqətən də Avrasiyanın "heartland"ıdır və bu status yalnız bugünün deyil, gələcək onilliklərin də əsas gerçəkliyidir.

*Pərviz SADAYOĞLU*













# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Kuba Respublikasına səfər edib

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov, partiyanın Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdiri Hülya Məmmədli və İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərovdan ibarət nümayəndə heyəti Kuba Respublikasına səfər edib.

Kuba Kommunist Partiyasının (KKP) dəvəti əsasında baş tutan səfər çərçivəsində Kuba Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi, Kuba Respublikasının Prezidenti Miqel Mario Dias-Kanel Bermudes nümayəndə heyətini qəbul edib.

Qəbul zamanı Azərbaycan ilə Kuba arasında münasibətlərin tarixi köklərə əsaslandığı qeyd olunaraq xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Kubanın Ali Baş Komandanı Fidel Kastronun bu istiqamətdə müstəsna xidmətləri vurğulanıb. Bu gün ölkələrarası münasibətlərin səmimi dostluq və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə əsaslanmaqla uğurla inkişaf etdiyi bildirilib. Fəal siyasi dialoq şəraitində iqtisadi, ticari, mədəni, tibb, təhsil, turizm, aqrar və digər sahələrdə genişmiqyaslı əməkdaşlıq üçün mühüm potensialın mövcud olduğu qeyd edilib. İstər Azərbaycan, istərsə də Kubanın müasir beynəlxalq münasibətlər sisteminin fəal subyekti kimi milli maraqlara əsaslanan müstəqil siyasət yürütməsinin əhəmiyyəti nəzərə çatdırılıb. Vurğulanıb ki, mürəkkəb qlobal problemlərlə müşayiət olunan və yeni geosiyasi reallıqların meydana çıxdığı müasir dövrdə iki dost ölkənin prinsipial mövqe sərgiləməklə beynəlxalq müstəvidə, o cümlədən BMT, Qoşulmama Hərəkatı kimi təşkilatlar səviyyəsində səmərəli işbirliyini davam etdirməsi dövlət mənafelərinin qorunması baxımından böyük əhəmiyyət daşıyır.

Kubaya qarşı iqtisadi, ticarət və maliyyə embarqosuna son qoyulmasının zəruriliyinə dair BMT Baş Assambleyasında müzakirəyə çıxarılan qətnamə layihələrinin lehinə Azərbaycanın hər zaman səs verdiyi, həmçinin Kubanın ölkəmizin regionda sülh, sabitlik və təhlükəsizlik məsələlərinə dair haqlı və ədalətli mövqeyini bölüşdüyü xatırladılaraq iki ölkənin beynəlxalq hüquq normalarına əsaslanmaqla bir-birinin ərazi bütövlüyü və suverenliyinə birmənalı dəstək verdikləri xüsusi vurğulanıb.

Azərbaycan-Kuba münasibətlərinin gələcək inkişafında hakim partiyalar - Yeni Azərbaycan Partiyası ilə Kuba Kommunist Partiyasının rolu diqqətə çatdırılıb, təmaslar və qarşılıqlı səfərlərin faydalı təcrübə mübadiləsinin aparılması, eləcə də məhsuldar işbirliyinin gücləndirilməsi nöqteyi-nəzərindən önəmi qeyd olunub.

Nümayəndə heyətinin Xalq Hakimiyyəti Milli Assambleyasının və Dövlət Şurasının sədri Xuan Esteban Lazo Hernandes ilə də görüşü keçirilib. Görüşdə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Kuba Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi, Kuba Respublikasının Prezidenti Miqel Mario Dias-Kanel Bermudesin iki ölkə arasında əlaqələrin inkişafına böyük önəm verdikləri bildirilib. Siyasi partiyalar və parlamentlər arasında əlaqələrin Azərbaycan-Kuba münasibətlərinin inkişafı xüsusunda əhəmiyyəti qeyd olunub.

Görüş zamanı istər Azərbaycan, istərsə də Kubanın milli maraqlar və beynəlxalq hüquq normalarını əsas götürərək dövlətlərarası münasibətlərin konstruktiv müstəvidə inkişafının tərəfdarı olduğu bildirilib. Yeni geosiyasi reallıqlar fonunda müstəqil siyasət yürüdən dövlətlərə qarşı ikili standartlara əsaslanan siyasətin beynəlxalq təhlükəsizlik və əməkdaşlığa təhdid yaratdığı vurğulanaraq bu hallara qarşı qətiyyətli mübarizənin önəmi qeyd olunub, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

KKP Mərkəzi Komitəsi Katibliyinin üzvü Xose Ramon Monteaqudo Ruiz və Kuba Respublikasının xarici işlər nazirinin birinci müavini Herardo Penyalver Portal ilə görüşlər zamanı isə YAP nümayəndə heyətinin dost ölkəyə səfərinin önəmi vurğulanaraq qarşılıqlı fikir mübadiləsinin əlaqələrin mövcud vəziyyəti və perspektiv imkanların müzakirəsi baxımından son dərəcə əhəmiyyətli olduğu qeyd edilib.

Səfər çərçivəsində Yeni Azərbaycan Partiyası ilə Kuba Kommunist Partiyası arasında Əməkdaşlıq Sazişi də imzalanıb. Sazişi YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və KKP Mərkəzi Komitəsi Katibliyinin üzvü Xose Ramon Monteaqudo Ruiz imzalayıblar.

Partiyalar arasında çoxşaxəli işbirliyinin əsas istiqamətlərini və mühüm prioritetləri müəyyənləşdirən Əməkdaşlıq Sazişinin imzalanmasının dövlətlər arasındakı əlaqələrin mühüm tərkib hissəsi kimi partiyalararası münasibətlərdə yeni mərhələnin əsasını qoyacağı və çoxşaxəli əməkdaşlığa xidmət edən siyasi-hüquqi əsasları möhkəmləndirəcəyi vurğulanıb. İki dost ölkənin maraqlarının və hakim partiyaların ortaq hədəflərinin əks olunduğu Sazişdən irəli gələn vəzifələrin icra olunması nəticəsində ortaq hədəflərin gerçəkləşdiriləcəyinə əminlik ifadə olunub.

Nümayəndə heyəti Fidel Kastro Mərkəzini də ziyarət edib.

















# Azərbaycan-Vatikan münasibətləri...

## Davamlı olaraq inkişaf edir



Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində müstəqil siyasət həyata keçirən güclü və nüfuzlu dövlət, etibarlı tərəfdaş kimi tanınır. Prezident İlham Əliyevin reallaşdırdığı strateji kurs ölkəmizin maraqlarının təmin olunmasına xidmət edir, qarşıya qoyulan hədəflərə çatmağa imkan verir, eləcə də Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmlənməsini təmin edir. Ölkəmiz ikitərəfli münasibətlərini inkişaf etdirməklə yanaşı, səmərəli və qarşılıqlı-faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Bu baxımdan ölkəmiz Müqəddəs Taxt-Tacla münasibətlərin inkişafına böyük önəm verir.

Dünyanın ayrı-ayrı ölkələrindən, regionlarından olduğu kimi, Vatikandan da Azərbaycana mənəvi-siyasi baxış müsbət çalarlarla zəngindir. Bu isə təsadüfi deyil və bir sıra amillərlə şərtlənir. Əvvəla, Azərbaycanda dini etiqad və vicdan azadlığı tam təmin edilib, ölkədə çoxlu sayda dini icma fəaliyyət göstərir, hər kəsin dini ayinləri sərbəst şəkildə yerinə yetirməsi üçün zəruri şərait təmin olunub. Müxtəlif dini dünyagörüşünə malik olan insanlar öz vicdan və etiqad azadlıqlarından sərbəst istifadə edirlər. Azərbaycanda milli, dini müxtəliflik insanlar arasında fərq yaradan amil kimi deyil, cəmiyyətin üstün dəyəri kimi çıxış edir. Azərbaycanda multikulturalizm, dinlərə və mədəniyyətlərə tolerant yanaşma cəmiyyətin həyat tərzidir, bütün dinlərə hörmətlə yanaşılır. Respublikamızda İslam dininə aid tarixi-dini abidələrin bərpasına dövlət vəsaiti ayrıldığı kimi, digər dinlərlə bağlı da eyni yanaşma tətbiq olunur.

Yeri gəlmişkən, noyabrın 25-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Vatikana rəsmi səfəri çərçivəsində bu məqamlar diqqət mərkəzində olub. Səfər zamanı C.Bayramov Müqəddəs Taxt-Tacın dövlət və beynəlxalq təşkilatlar üzrə katibi arxiyepiskop Riçard Qallager ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında ikitərəfli münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri, regional və beynəlxalq məsələlər, habelə beynəlxalq platformalar çərçivəsində əməkdaşlıq imkanları müzakirə olunub.

Azərbaycan və Müqəddəs Taxt-Tac arasında əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsi naminə son zamanlar yüksəksəviyyəli səfərlərin artan dinamikasının qorunub saxlanılmasının vacibliyi diqqətə çatdırılıb. Bu çərçivədə Azərbaycan Prezidentinin Vatikana rəsmi səfərləri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın cari ilin oktyabr ayında Müqəddəs Taxt-Taca baş tutmuş səfəri və səfər çərçivəsində həyata keçirilmiş görüşlərin və tədbirlərin əhəmiyyəti vurğulanıb.Mehriban xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Taxt-Tacda indiyədək həyata keçirilmiş və gələcəkdə icrası planlaşdırılan humanitar xarakterli mühafizə və bərpa layihələri məmnunluqla xatırlanıb. Mehriban xanım Əliyevanın Vatikana səfəri zamanı Avropanın ən böyük pediatrik xəstəxanası və tədqiqat mərkəzi olan "Bambino Gesu"nu ziyarəti və ölkəmizlə bu sahədə əməkdaşlıq əlaqələrinin əhəmiyyəti qeyd olunub.

Bununla yanaşı, Papa II İoann Pavelin 2002-ci ildə, Papa Fransiskin 2016-cı ildə ölkəmizə səfərləri, Bakıda II İoann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin yerləşəcəyi ərazinin təqdimetmə mərasimi və hazırda kilsənin tikilməsi məmnunluqla xatırlanıb. Eləcə də 2027-ci ildə qeyd ediləcək diplomatik münasibətlərin təsis edilməsinin 35 illiyinin münasibətlərin inkişafına əlavə təkan verəcəyinə əminlik ifadə olunub.

Bundan başqa, Azərbaycanın dini tolerantlıq, mədəniyyətlərarası və etiqadlararası dialoq sahəsindəki uğurları, ölkəmizdə xristian məbədləri də daxil olmaqla, dini abidələrin bərpası və qorunması üzrə görülən işlər haqqında danışılıb. Azərbaycanın müxtəlif din və mədəniyyətlərin bir arada yaşadığı ölkə kimi apardığı uğurlu siyasətin beynəlxalq sülhə və anlaşmaya töhfəsi qeyd edilib. Eyni zamanda, qlobal iqlim dəyişmələrindən narahatlıq ifadə olunub, ölkəmizin COP29 sədri olaraq gördüyü işlər və təşəbbüsləri barədə qarşı tərəfə məlumat verilib. Bununla yanaşı, ölkəmizin enerji təhlükəsizliyinə töhfəsi, nəqliyyat dəhlizlərinin inkişafında rolu, Orta Asiya ölkələri ilə əlaqələr barədə fikir mübadiləsi aparılıb.

C.Bayramov görüş zamanı qarşı tərəfə Azərbaycan-Ermənistan normallaşma prosesi, tarixi Vaşinqton Zirvəsi zamanı əldə edilmiş razılaşmalar və onların icrası istiqamətində həyata keçirilən əməli tədbirlər, münaqişədən sonra regionumuzdakı vəziyyət barədə ətraflı məlumat verib.Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın XİN başçısı, həmçinin Müqəddəs Taxt-Tacın dövlət katibi, kardinal Pietro Parolin ilə də görüşüb. Görüşdə Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında ikitərəfli münasibətlərin mövcud gündəliyi, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər müzakirə olunub. Azərbaycanın Müqəddəs Taxt-Tac ilə münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyi diqqətə çatdırılıb, son zamanlar Azərbaycandan Müqəddəs Taxt-Taca baş tutan çoxsaylı yüksəksəviyyəli səfərlərin bunun bariz nümunəsi olduğu bildirilib. Bu çərçivədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca cari ilin oktyabr ayında həyata keçirilmiş səfərinin əlaqələrimizin qarşılıqlı anlaşma və ortaq dəyərlər əsasında daha da möhkəmlənməsinə təkan verdiyi vurğulanıb. Mehriban xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Taxt-Tacda həyata keçirilən mühafizə və bərpa layihələrinin humanitar sahədə əməkdaşlığımız üçün körpü rolunu oynadığı qeyd edilib.



Görüşdə Azərbaycan ərazisində yaşayan bütün etnik və dini icmaların hüquq və təhlükəsizliyinin təmin edildiyi bildirilib, ölkəmizin çoxəsrlik multikulturalizm və tolerantlıq ənənələrindən danışılıb. Dini etiqadların universal insani dəyərlər və qlobal həmrəyliyin təşviqindəki mühüm roluna toxunulub, bu çərçivədə dinlərarası dialoqun daha da dərinləşdirilməsinin, eləcə də mədəni-humanitar sahədə müştərək layihələrin təşviqinin həm ikitərəfli, həm də çoxtərəfli formatlarda dostluq və anlaşma əlaqələrinin gücləndirilməsinə töhfə verdiyi ifadə olunub.

Nazir görüş zamanı qarşı tərəfə Azərbaycan-Ermənistan normallaşma prosesi, tarixi Vaşinqton Zirvəsi zamanı əldə edilmiş razılaşmalar və onların icrası istiqamətində həyata keçirilən əməli tədbirlər barədə ətraflı məlumat verib.

*Nardar BAYRAMLI*

# Həmrəylik forumu...

## Türk dövlətləri QHT-lərinin forumu cəmiyyətlərimiz arasında birliyi daha da gücləndirəcək

Azərbaycanın xarici siyasəti balanslaşdırılmış və çoxtərəfli əməkdaşlığa əsaslanır. Bu yanaşma Azərbaycanın həm Qərb, həm də Şərq ölkələri ilə münasibətlərini paralel şəkildə inkişaf etdirməsinə şərait yaradıb. Lakin 2020-ci ildən sonra regionda və dünyada baş verən proseslər Azərbaycanın xarici siyasətində yeni tərəfdaşlıqlar qurması üçün əsaslı zəmin formalaşdırıb. Bütün bunların fonunda Azərbaycanın Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində siyasəti xüsusi vurğulanmalıdır. XXI əsrdə yeni dünya düzəninin formalaşdığı bir vaxtda Türk Dövlətləri Təşkilatı öz gücünü daha da artırır. Malik olduğu resurslar, əhali sayı, coğrafi mövqeyi baxımından Türk dünyası artıq qlobal miqyasda əsas geosiyasi və geoiqtisadi güc mərkəzlərindən birinə çevrilir.




Türk dünyası ortaq tarix, dil və mədəniyyətə malik 7 müstəqil dövlət, bir neçə muxtar ərazidən ibarət böyük coğrafi məkandır. 2009-cu ildə Naxçıvanda təsis edilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bu əməkdaşlığın daha da inkişaf etməsi və birliyin möhkəmlənməsi üçün mühüm

### Azərbaycanın təşəbbüsləri TDT-nin güclənməsinə xidmət edir

platforma rolunu oynayır. 2021-ci ildə təşkilatın statusu və nüfuzu daha da yüksəldilərək Türk Dövlətləri Təşkilatı adlandırıldı və bu addım Türk dünyasının beynəlxalq arenada söz sahibi kimi çıxış etməsinə imkan yaradır.

Azərbaycan TDT-nin təsisçi üzvlərindən biri olaraq bu təşkilatın fəaliyyətində mühüm rol oynayır. Ölkəmiz təşkilat yaranan gündən ona xüsusi önəm verib və bu istiqaməti xarici siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Azərbaycan TDT-ni üzv və müşahidəçi dövlətlərlə əməkdaşlığı genişləndirmək və dərinləşdirmək üçün vacib platforma hesab edir. Dövlətimiz TDT çərçivəsində qurumun nüfuzunu artırmaq və funksionallığını gücləndirmək üçün mütəmadi olaraq yeni təşəbbüslərlə çıxış edir.

Artıq hər il TDT-nin zirvə toplantıları çərçivəsində, eləcə də ikitərəfli münasibətlər kontekstində türk dövlətlərinin münasibətlərinin gücləndirilməsi üçün sistemli tədbirlər həyata keçirilir. Son illər TDT-nin sammitlərində qəbul olunan qərarlar türk dünyasının dünyaya qlobal güc kimi təqdim olunması yönündə atılan addımlardır. Nəzərə alaq ki, TDT müstəvisində təkcə Zirvə görüşləri keçirilmir, türk dövlətlərinin müvafiq dövlət qurumlarının, strukturların təşkilatlanmış platformaları da yaradılıb və onların da vaxtaşırı toplantıları keçirilir. Təqdirəlayiq haldır ki, TDT ölkələrinin vətəndaş cəmiyyətinin təmsilçiləri də fəal əməkdaşlıq niyyətini nümayiş etdirir. Noyabrın 24-də Bakıda Azərbaycanın təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının (QHT) ilk dəfə bir platformada toplaşması bunun göstəricisidir. Yəni, TDT-yə üzv ölkələrin QHT-lərinin həmrəylik forumunun keçirilməsi çox vacib hadisədir. Forumda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Respublikasından 500-dən çox vətəndaş cəmiyyəti təmsilçisinin iştirak etməsi özlüyündə tədbirin önəmindən xəbər verir.

### Türk dövlətlərinin QHT-ləri Naxçıvanda

Noyabrın 25-də isə TDT-yə üzv ölkələrin QHT-lərinin həmrəylik forumu Naxçıvan şəhərində davam edib. Forumda QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva bildirib ki, son illər türk dövlətləri ilə birgə layihələr silsilə xarakter almaqdadır. Onun sözlərinə görə, ötən üç il ərzində Özbəkistan, Türkiyə, Şimali Kipr Türk Respublikası və digər qardaş türk dövlətlərində fəaliyyət göstərən QHT-lərlə və tərəfdaş qurumlarla bir sıra vacib layihələr həyata keçirilib.




Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov isə bildirib ki, 2009-cu ildə "Naxçıvan Sazişi"nin imzalandığı şəhərdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin Həmrəylik Forumunun keçirilməsi rəmzi məna daşıyır: "Naxçıvanın vətəndaş cəmiyyəti təmsilçiləri də türk dövlətləri ilə əməkdaşlığın genişləndirilməsində xüsusilə maraqlıdır. Muxtar respublikanın QHT-ləri regional təşəbbüslərə qoşulmağa, ortaq layihələrdə iştirak etməyə və Türk dünyasının birliyinə öz töhfələrini verməyə böyük həvəs göstərirlər". Ceyhun Cəlilov onu da vurğulayıb ki, Zəngəzur dəhlizinin Naxçıvan hissəsində avtomobil yolu, dəmir yolu, enerji və kommunikasiya xətlərinin tikintisi üzrə hazırlıq işləri sürətləndirilib və artıq son mərhələyə keçilib.

Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev qeyd edib ki, qədim Naxçıvan torpağında Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-ləri ilk dəfə vahid platformaya çıxır: "Bu, bütün Türk dünyasının fərəhli, tarixi günüdür, böyük xoşbəxtlikdir! Biz ümumi işimizlə elə etməliyik ki, qarşıdakı dövrdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Respublikası arasında tarix, mədəniyyət, ekologiya, iqlim siyasəti və digər sahələrdə QHT-lər üçün ikitərəfli, həm də çoxtərəfli əsasda qrant müsabiqələri geniş vüsət alsın". Daha sonra forum panel müzakirələrlə davam edib.

### Mənəvi bağlar möhkəmlənir

Qeyd edək ki, Azərbaycan Türk Dövlətləri Təşkilatına hazırda sədrlik edən ölkə olaraq üzv ölkələrin vətəndaş cəmiyyəti təsisatları arasında da ictimai kommunikasiyanın gücləndirilməsinə çalışır. Prezident İlham Əliyevin forum iştirakçılarına müraciətində qeyd olunduğu kimi, Türk dövlətlərinin artan potensialı və qlobal müstəvidə gündən-günə güclənən mövqeyi daha iddialı məqsədlərin qarşıya qoyulmasını, birgə səylərin artırılmasını, bütün sahələrdə əməkdaşlığın dərinləşdirilməsini, çevik mexanizmlərin yaradılmasını zəruri edir. İlk dəfə keçirilən Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumu da bu istiqamətdə atılmış mühüm addımdır.

Əlbəttə, türk dövlətlərinin cəmiyyətlərinin sıx əməkdaşlıq təşəbbüsləri birliyimizi daha da gücləndirir. Dövlət səviyyəsində aparılan siyasətlə yanaşı, xalqlarımızın və cəmiyyətlərimizin həmrəylik təşəbbüsləri türk dünyasını mənəvi bağlarla daha da birləşdirir. Dost və qardaş xalqlarımızı ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlər möhkəm bir ailə kimi birləşdirir, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsini şərtləndirir. Bu baxımdan, TDT-yə üzv ölkələrin vətəndaş cəmiyyəti təmsilçilərinin həmrəylik forumu böyük əhəmiyyət kəsb edir.

*Nardar BAYRAMLI*

# ABŞ sülhə nail olmaq istəyir, Aİ tələblərini irəli sürür

## Ukrayna - Rusiya müharibəsinin gələcək taleyi sual altında...

**Ukrayna-Rusiya müharibəsinin dayandırılması istiqamətində aparılan sülh təşəbbüsləri prosesi müəyyən məsafə qət edib. Avqustda baş tutan Alyaska görüşündən sonra ABŞ-ın fəal şəkildə bu prosesə qoşulması vəziyyətin düzələcəyi ilə bağlı ümidlər yaradıb - qeyd edək ki, son günlər bir sıra masalarda artıq sülh planlarının müzakirəsi aparılmaqdadır. Bəlli olduğu kimi, bir neçə gün öncə Cenevrədə ABŞ-ın və Aİ-nin tənzimləmə ilə bağlı sülh planlarının müzakirəsi olub. Aİ-nin sülh planı komplekt şəkildə kənara qoyulub - ABŞ-ın sülh planında isə müəyyən dəyişikliklər edilib. Ardından Əbu-Dabidə Rusiya və ABŞ nümayəndələri arasında görüş baş tutub. Bu cür gərgin trafikin hansı nəticələrə yol açacağını isə zaman göstərəcək. Vurğulandığı kimi, Aİ-nin sülh planının aktuallığını itirməsi kontingentin prosesə münasibətinə də təsir göstərib. Vurğulayaq ki, Cenevrə görüşündən sonra Avropa liderləri "könüllülər koalisiyası"nın iclasını keçiriblər. Amma diqqət çəkən nəticələrdən çox, ritorikalar olub.**

## "İstəkli ölkələr koalisiyası"nın istəkləri: Kiyevin maliyyələşdirilməsi üçün...

Fransa prezidenti Emmanuel Makron bildirib ki, "istəkli ölkələr koalisiyası" yaxın gələcəkdə Kiyev üçün təhlükəsizlik zəmanətləri hazırlamaq məqsədilə ABŞ ilə birgə işçi qrupu yaratmaq niyyətindədir. "Sabahdan etibarən bir çox məsələlərdə əsas rol oynayan Türkiyə ilə sıx əməkdaşlıq çərçivəsində və ilk dəfə olaraq ABŞ-ın iştirakı ilə Fransa və Birləşmiş Krallığın rəhbərlik etdiyi işçi qrupu yaratmaq qərarına gəlmişik", - deyə Makron görüşdən sonra bildirib. Daha sonra Britaniya, Fransa və Almaniya liderləri ABŞ Dövlət katibi Marko Rubio ilə Kiyev üçün təhlükəsizlik zəmanətləri üzərində işi sürətləndirmək barədə razılığa gəldiklərini açıqlayıblar. Almaniya Nazirlər Kabinetinin mətbuat xidməti tərəfindən yayılan sənəddə qeyd olunur ki, "Onlar hərbi departamentlərinə bu sahədə ümumi planlaşdırma işlərini başa çatdırmağı tapşırıblar". "Könüllülər koalisiyası"nın iclasının ardından avropalılar illərdir onları narahat edən dondurulmuş Rusiya aktivlərinin istifadəsi ilə bağlı bəyanat veriblər. Avropa siyasətçiləri rəsmi Kiyevin maliyyələşdirilməsi üçün "dondurulmuş Rusiya aktivlərinin tam istifadəsini" təmin etmək öhdəliklərini təkrarlayıblar. Qeyd edək ki, bu təklif bir müddət öncə Avropa Komissiyasının prezidenti Ursula fon der Leyenin açıqlamasında da öz əksini tapmışdı. Fon der Leyen Rusiya aktivlərinin müsadirəsini müzakirə etmək niyyətində olduğunu açıqlamışdı - Avropa rəsmisi bildirmişdi ki, "istəkli ölkələr koalisiyası" müzakirəsinin əsas məqamı Ukraynanın Rusiya aktivlərindən istifadə etməklə maliyyələşdirilməsi məsələsi olacaq.


3715

Britaniyanın Baş naziri Kir Starmer Ukrayna Prezidenti Volodimir Zelenski ilə telefon danışığı aparıb. Zəng "istəkli ölkələr koalisiyası"nın iclası ərəfəsində baş tutub. Tərəflər Cenevrədə keçirilən danışıqlar və sonrakı diplomatik təmaslar fonunda Ukrayna üçün ədalətli və davamlı sülhün təmin edilməsinin vacibliyini vurğulayıblar. Baş nazir Birləşmiş Krallığın bu prosesdə Ukraynanı tam dəstəkləməyə davam edəcəyini bildirib. Hər iki lider yaxın vaxtlarda yenidən danışmaq barədə razılığa gəlib.

Almaniya Kansleri Fridrix Mertslə də Ukrayna Prezidenti Volodimir Zelenski arasında telefon danışığı olub. Almaniya hökumətinin sözçüsü Stefan Kornelius bildirib ki, telefon söhbətində liderlər müharibənin dayandırılması barədə Cenevrədə aparılmış danışıqlar prosesinin gedişini müzakirə ediblər.

Kansler Fridrix Merts görüşdən sonra "X" platformasındakı paylaşımında bildirib: "Biz Ukraynanı dəstəkləməkdə davam edirik. Biz atəşkəsə mümkün qədər tez nail olmaq, Ukrayna üçün ədalətli və dayanıqlı sülh, Avropa üçün isə təhlükəsizlik istəyirik. Avropanın maraqlarına və suverenliyinə təsir edən istənilən plan Avropanın razılığını tələb edir. Avropa qətiyyətli və birlik içindədir".

"İstəkli ölkələr koalisiyası"nın başqa bir üzvü Fransa prezidenti Emmanuel Makron isə Ukrayna ordusunun sayı ilə bağlı istənilən məhdudiyyətə qarşı olduğunu bəyan edib. Emmanuel Makron RTL radiosunun efirində Ukrayna ordusunun sayı ilə bağlı məhdudiyyətlərə ehtiyacın olmadığını deyib. "Təhlükəsizliyin əsas təminatı Ukrayna ordusunun regenerasiyasıdır. Ukraynanın müdafiəsi üçün lazım olan ilk amil onun öz ordusudur. Son günlər Cenevrədə bütün müzakirələr Ukrayna Silahlı Qüvvələrinin sayının azaldılmasına yönəlib", - deyə dövlət başçısı bildirib.

Prezidentin sözlərinə görə, Rusiya Ukrayna ordusunun ixtisar edilməsinə çalışır: "Bu, Moskvanın hələ 2022-ci ilin yazında İstanbul danışıqlarında, Ukrayna ordusunun sayının 50-60 min nəfərlə məhdudlaşdırılmalı olduğunda israr edərkən aydın görünürdü", - deyə Fransa lideri vurğulayıb.

## İstanbul prosesi bərpa olunsun: Moskva və Kiyevlə müzakirələr aparılır

Yeri gəlmişkən, noyabrın 25-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ukraynaya dəstək məqsədilə yaradılmış "istəkli ölkələr koalisiyası"nın videokonfrans formatındakı liderlər zirvəsində iştirak edib. 35 ölkə nümayəndəsinin iştirakı ilə keçirilən görüş zamanı Ukrayna-Rusiya müharibəsindəki son vəziyyət, döyüşlərin dayandırılması istiqamətində atılacaq addımlar və sülh təşəbbüsləri müzakirə olunub.

Mətbuata qapalı keçirilən zirvənin yekunlarına dair açıqlama verən Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Burhanettin Duran bildirib ki, Prezident Ərdoğan tədbir iştirakçılarına rəsmi Ankaranın münaqişə ilə bağlı mövqeyini çatdırıb. Türkiyə liderinin sözlərinə görə, Ankara ədalətli və uzunmüddətli sülhün tezliklə bərqərar olması üçün diplomatik səylərini davam etdirir və bu məqsədlə tərəfləri birbaşa danışıqlara sövq edir.

Prezident qeyd edib ki, Rusiya-Ukrayna danışıqları yenidən İstanbulda keçirilə bilər. Türkiyə tərəfi bu istiqamətdə həm Moskva, həm də Kiyevlə müzakirələri davam etdirir. Türkiyə lideri bildirib ki, enerji sektoru və limanları da əhatə edəcək atəşkəs razılaşması genişmiqyaslı sülh müqaviləsinin müzakirəsi baxımından əlverişli şərait yarada bilər.

Avropa düşdüyü çətin vəziyyətdən çıxmaq üçün yenidən üzünü Türkiyəyə tutur. Bu ağır məqamda, xüsusilə Qərb koalisiyasının içində çatların müşahidə olunduğu dövrdə kontingent yeni qlobal oyunçu kimi Ankaranın vəziyyətə müdaxilə etməsini labüd sayır. Bu da təsadüfi deyil - nəzərə alınmalıdır ki, Qəzza ilə bağlı sülh planında zəmanət verən tərəflərdən biri məhz Türkiyədir.








## Tramp: Ukrayna bəzi ərazilərdən imtina etməlidir, əks halda...

Beynəlxalq mətbuatın yazdığına görə, ABŞ-ın sülh planınında bütün Donetsk bölgəsinin Rusiyaya təslim edilməsi, ABŞ-ın Krım və Donbası Rusiya əraziləri kimi tanıması, Zaporojye və Xerson bölgələrində cəbhə xəttinin dondurulması nəzərdə tutulur. Tramp administrasiyası Donbas ərazisinin - yəni Ukraynanın könüllü olaraq geri çəkiləcəyi Donetsk və Luqansk bölgələrinin - Rusiyanın nəzarətinə verilməsini, eyni zamanda silahsızlaşdırılmış zonaya çevrilməsini təklif edir. "Axios"un məlumatına görə, ABŞ özü və Avropa müttəfiqləri üçün Krım və Donbası rəsmi olaraq Rusiya əraziləri kimi tanımağa söz verir, lakin Ukraynanı buna məcbur etməyəcək.

Sənəddə həmçinin Ukrayna Silahlı Qüvvələrinin sayının 50 faiz azaldılması, respublikada xarici qoşunların yerləşdirilməsinə qadağa qoyulması, Moskva və Sankt-Peterburqdan Kiyevə çata bilən uzun mənzilli silahların tədarükünə məhdudiyyətlər tətbiq edilməsi nəzərdə tutulur. Başqa bir bənddə Ukraynanın "ən azı bir neçə il" NATO-ya qoşulmaqdan imtina etməsi də qeyd edilir. Bütün bu güzəştlər müqabilində ABŞ Ukraynaya və Avropaya təhlükəsizlik zəmanətləri təklif edir - lakin bu zəmanətlərin mahiyyəti dəqiq bəlli deyil.

ABŞ Prezidenti Donald Tramp bəyan edib ki, sülh razılaşmasına nail olmaq üçün Ukrayna bəzi ərazilərdən imtina etməlidir, əks halda bu əraziləri bir neçə ay ərzində itirə bilər. ABŞ lideri bunu Floridaya gedərkən təyyarəsində jurnalistlərlə söhbətində deyib. "Baxın, hər şey bir istiqamətdə gedir. Nəhayət, yaxın bir neçə ay ərzində bu torpaqlar Rusiyanın əlinə keçə bilər. Deməli, ya döyüşüb daha 50-60 min insan itirmək istəyirsiniz, ya da elə indi nəsə etmək istəyirsiniz", - deyə Tramp bildirib.

ABŞ Prezidenti əlavə edib: "Bu müharibə illərlə davam edə bilər və Rusiyanın daha çox insan və hərbi resursu var. Ona görə mən hesab edirəm ki, Ukrayna saziş bağlaya bilsə, bu, yaxşı olardı. Düşünürəm ki, bu, hər iki tərəf üçün əla seçim olar".

CNN mənbələrə istinadla məlumat yayıb ki, Amerika administrasiyası Moskva və Kiyevi nizamlanma prosesini müzakirə etmək öhdəliyinə inandırmaq üçün Ukrayna ilə bağlı danışıqlarda bilərəkdən daha nikbin ritorikadan istifadə edir. Məlumata görə, Vaşinqtonun strategiyası "etimad mühitinin bərpası" konsepsiyasına əsaslanır. Bu yanaşma riskləri artırsa da, tərəflərin danışıqlardan geri çəkilməsini çətinləşdirir.

CNN qeyd edir ki, ABŞ rəsmiləri Rusiya və Ukraynanı atəşkəs razılaşmasına razı salmaq üçün mövcud diplomatik dinamikanı maksimum dərəcədə istifadə etməyə çalışırlar. Bununla belə, Amerika rəsmiləri razılığın əldə olunması üçün hələ çox iş görülməli olduğunu da etiraf edirlər.

Proses isə davam edir - ABŞ Prezidenti Donald Tramp bəyan edib ki, onun xüsusi nümayəndəsi Stiven Uitkoff və kürəkəni Cared Kuşner gələn həftə Moskvada Rusiya Prezidenti Vladimir Putinlə görüşəcəklər. Trampın sözlərinə görə, Kuşner Ukraynada sülh prosesində iştirak edir və Uitkoffla birlikdə danışıqlar üçün Rusiyaya "yüksək ehtimalla" səfər edəcək. "Məncə, onlar gələn həftə Moskvada Prezident Putinlə görüşəcəklər", - deyə ABŞ Prezidenti qeyd edib.

Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov bildirib ki, ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiv Uitkoffla müntəzəm ünsiyyət qurur, lakin bu söhbətlərin detalları barədə açıqlama vermək niyyətində deyil. "Uitkoffla tez-tez danışırıq. Amma məzmununu şərh etmirəm", - Uşakov bildirib.

Uşakov mətbuata açıqlamasında Stiv Vitkoffun Moskvaya səfər etməyi planlaşdırdığını deyib.

## Ukrayna NATO-dan imtina edəcəkmi?

Bəlli olduğu kimi, ABŞ-ın sülh planında Ukraynanın "ən azı bir neçə il" NATO-ya qoşulmaqdan imtina etməsi də yer alır. Amma deyəsən, Kiyev bu öhdəliyi üzərinə götürmək fikrində deyil. Belə ki, "AXİOS"a müsahibəsində Ukrayna Prezident Ofisinin rəhbəri Andrey Yermak Ukraynanın NATO-ya üzvlüklə bağlı konstitusiyadan irəli gələn öhdəliyindən imtina etməyəcəyini bildirib. "Ukrayna gələcəkdə NATO-ya doğru irəliləməklə bağlı konstitusion öhdəliyindən imtina etməyəcək, lakin hazırda biz reallıqda yaşayırıq. Biz NATO-da deyilik", - deyə o vurğulayıb. Yermak bildirib ki, Kiyevin alyansa qoşulmaq istəyi konstitusiya öhdəliyidir. Ölkənin Aİ və NATO-ya sadiqliyini təsbit edən qanun 2019-cu ildə qüvvəyə minib. Bu sənədə əsasən, Ukrayna Prezidenti "dövlətin Avropa İttifaqına və Şimali Atlantika Müqaviləsi Təşkilatına tamhüquqlu üzvlüyə doğru strateji kursunun həyata keçirilməsinin qarantı" hesab edilir.

Bundan əlavə, Yermak Donald Trampın Ukraynada müharibəni bitirmək üçün hazırladığı 28 bəndlik sülh planının qəbuledilməz olduğunu, lakin artıq keçmişdə qaldığını qeyd edib.

Xatırladaq ki, ilkin mərhələdə Ukrayna tərəfindən qəbul edilməyən 28 bəndlik plandan 9 bənd çıxarılıb.

***P.İSMAYILOV***

# Qahirə konfransı niyə təxirə salındı?

Bir neçə gün öncə BMT Təhlükəsizlik Şurasının Qəzzada Beynəlxalq Sabitləşdirmə Qüvvələrinin (ISF) yerləşdirilməsi ilə bağlı ABŞ-ın qətnaməsini qəbul etməsi regionda sülhə doğru addımların atılacağı ilə bağlı ümid yaradıb. Xatırladaq ki, uzun müddətdir davam edən HƏMAS-İsrail qarşıdurmasının dayandırılması, atəşkəsin əldə olunması üçün ABŞ Prezidenti Donald Tramp 20 bənddən ibarət sülh layihəsi hazırlayıb. Bu il oktyabrın 13-də isə Şarm əl-Şeyxdə Yaxın Şərq Sülh Sammitində atəşkəs sazişi imzalanmışdı. Sazişin imzalanması prosesində İsrail və HƏMAS-ın nümayəndələri iştirak etməmişdilər - sənədi 4 vasitəçi ölkə imzalamışdı: ABŞ, Qətər, Misir və Türkiyə. Dünyanın 20-dən artıq liderinin iştirakı ilə keçirilən mərasimdə imzalanan sənədin Qəzza zolağı ətrafındakı vəziyyətə müəyyən aydınlıq gətirəcəyinə ümid bəslənildi. Amma son günlərdə müşahidə olunan proseslər vəziyyətin yenidən dəyişmə təhlükəsi yaşadığını göstərməkdədir. Sülh prosesi ilə bağlı Qahirədə keçirilməsi planlaşdırılan konfransın təxirə salınması da deyilənləri təsliqləyir.

## Atəşkəs imzalanmışdı, amma sülh...

Hələ oktyabrda planlaşdırılmışdı ki, noyabrın sonunda Misirdə Qəzzanın yenidən qurulması ilə bağlı konfrans keçirilsin. Bunu Misir Prezidenti Əbdülfəttah əs-Sisi Şarm əl-Şeyxdə keçirilən sülh sammiti çərçivəsində Avropa və Yaxın Şərq ölkələrinin liderləri ilə baş tutan görüşdə açıqlamışdı. "Qəzzanın yenidən qurulması ilə bağlı beynəlxalq konfrans vacibdir: ümid edirik ki, noyabr ayında Qahirədə keçiriləcək. Bu, hazırkı sammitdə əldə etdiyimiz bütün razılaşmalara təkan verməyə kömək edəcək", - deyə əs-Sisi ofisinin məlumatında vurğulanırdı. Konfransın dəqiq tarixi açıqlanmasa da, Qahirə Qəzzada döyüşlər bitən kimi infrastrukturun yenidən qurulması ilə bağlı görüş keçirməyə hazır olduğunu bəyan etmişdi. Bundan öncə, oktyabrın 10-da İsrailin Baş naziri Benyamin Netanyahunun ofisi hökumətin "bütün girovların azad edilməsi ilə bağlı razılaşma"nı təsdiqlədiyini açıqlamışdı, oktyabrın 13-də isə HƏMAS və müttəfiqləri 20 sağ qalan israilli girovu Beynəlxalq Qırmızı Xaç Komitəsinin tibb işçilərinə təhvil vermişdilər. Beləliklə, danışıqlar prosesi uğurlu şəkildə inkişaf edirdi.

Bununla belə konfrans təxirə düşüb - ərəb nəşri olan "Əşarq əl-Əvsət"in məlumatına görə, tədbir Fələstin bölgəsindəki mövcud vəziyyətə görə təxirə salınıb. Misirli mənbə bildirib ki, konfrans daha sonra keçiriləcək. Mənbənin məlumatına görə, bir çox ölkə Qəzzada baş verən qeyri-stabil hadisələrin təkrarlanmayacağına dair zəmanət gözləyir. Lakin bölgədəki vəziyyətdə hələ müəyyən gərginliklər müşahidə olunmaqdadır - bu mənada, gərginliyin artması və tez-tez baş verən qanun pozuntuları səbəbindən hələlik belə bir vəd verilməyib. Onlar həmçinin qeyd ediblər ki, İsrail qüvvələri tərəfindən nəzarət edilən ərazilərlə bağlı hazırda paralel səylər davam edir.

## Konfrans nə vaxt olacaq?

Qeyd edək ki, bu ilin martında Qahirədə keçirilən Ərəb Liqasının təcili zirvə toplantısında çoxmərhələli işlərin planlaşdırıldığı Qəzza zolağının yenidən qurulması planı qəbul edilmişdi - orada fələstinlilərin köçürülməsi istisna olunurdu. Yenidənqurmanın təxmini dəyəri 53 milyard dollar hesablanıb.



## Xarici mətbuatın diqqətində...

Bəzi xarici mətbuat da bu məsələyə diqqət çəkib - bildirilir ki, noyabrın sonuna planlaşdırılan Qahirə Qəzza Bərpa Konfransı bölgədəki münaqişənin davam edən eskalasiyası və danışıqlar üçün şəraitin əlverişsiz olması səbəbindən təxirə salınıb. Ev sahibi olaraq Misir konfransın məqsədlərinə çatmaq üçün mümkün olan ən yaxşı şəraiti təmin etmək istəyir və həmçinin Qəzzada dağıntıların sona çatacağına dair zəmanət gözləyir. Təxirə salınmanın əsas səbəbləri kimi Qəzzada mövcud vəziyyətin konfransın planlaşdırıldığı kimi keçirilməsini qeyri-mümkün etməsi göstərilir. Qərb mətbuatı yazır ki, Qahirə ən yaxşı nəticəni təmin etmək istəyində israrlıdır - Misir fələstinlilər üçün müsbət və real nəticə əldə etməyə sadiqdir və bunun üçün doğru vaxtı seçir.

## Aİ-dən çağırış: yardıma hazırıq...

Bu arada Avropa İttifaqı da BMT Təhlükəsizlik Şurasının qətnamələrinə riayət etməklə Qəzza zolağının yenidən qurulmasında iştirak etməyə hazır olduğunu bəyan edib. Brüsseldə keçirilən brifinqdə Avropa İttifaqının mətbuat katibi Ənvər əl-Ənuni deyib ki, Avropa Komissiyası Qəzzada humanitar yardım və yenidənqurma səylərini dəstəkləmək üçün sərəncamında olan bütün vasitələri səfərbər edəcək. "Qəzza yenidən qurulmalıdır. Fələstinlilər yenidən təhlükəsiz və qanuna əsaslanan mühitdə, dirçələn iqtisadiyyatla yaşamalıdırlar. BMT Təhlükəsizlik Şurasının 2803 saylı qətnaməsinə əsasən, Sülh Şurası bir çərçivə yaradacaq və Qəzzanın inkişafı üçün ayrılan vəsaitlərin ardıcıl şəkildə və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq əlaqələndirilməsini təmin edəcək", - deyə əl-Ənuni bildirib. O, həmçinin xatırladıb ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən, iki demokratik dövlət - İsrail və Fələstin - sülh və təhlükəsizlik şəraitində birgə yaşamalıdırlar.

Əl-Ənuni bildirib ki, Aİ bütün şərtlər yerinə yetirildikdən sonra Qəzzanın yenidən qurulması ilə bağlı konfransın təşkilində Misirlə əməkdaşlığı etməyə də hazırdır. O, Avropa Şurasının iclasında dövlət və hökumət başçılarının məsələ ilə bağlı mövqeyini xatırladıb: "Bu mövqe İsraili Fələstin dövlətinin normal fəaliyyət göstərməsinə, eləcə də bank xidmətlərinin və əhaliyə əsas xidmətlərin göstərilməsinə imkan verəcək vəsait ayırmağa çağırışı özündə ehtiva edir".

İsrail və HƏMAS hərəkatı arasında vasitəçilik edən Misir və Qətər Qahirədə Qəzza zolağında atəşkəs razılaşmasının ikinci mərhələsinin həyata keçirilməsini müzakirə ediblər. Məlumatı Misirin "Əl-Qahira əl-İxbariya" telekanalı yayıb. Kanalın məlumatına görə, danışıqlarda Misirin kəşfiyyat direktoru Həsən Rəşid iştirak edib: "Görüşdə Qəzza zolağında atəşkəs razılaşmasının ikinci mərhələsinin uğurla həyata keçirilməsi üçün ABŞ ilə birgə səylərin gücləndirilməsinin zəruriliyi barədə razılığa gəlinib".

Bundan əlavə, Fələstin anklavında atəşkəsin təminatçıları olan Misir və Qətər tərəfləri ABŞ-ın yaratdığı "hərbi-mülki koordinasiya mərkəzi ilə Qəzza zolağında atəşkəsin gücləndirilməsini təmin etmək üçün maneələri aradan qaldırmaq və pozuntuların qarşısını almaq üçün əməkdaşlığı gücləndirmək" barədə razılığa gəliblər.

## Kəşfiyyat rəhbərləri Misirə toplandı...

Türkiyənin NTV kanalının mənbələrə istinadən verdiyi məlumata görə, Türkiyənin Milli Kəşfiyyat Təşkilatının rəhbəri İbrahim Kalın da Qahirədəki müzakirələrdə iştirak edib. Onun misirli həmkarı Həsən Rəşid və Qətərin Baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman Əl-Tani ilə Qəzza zolağında atəşkəs razılaşmasının ikinci mərhələsini müzakirə etdiyi bildirilir.

**SADİQ**

# Materiyanın çürük zənciri

## Saday Budaqlının "Fevral" povesti haqqında

**əvvəli ötən saylarımızda**

Həqiqətən, eqosundan yarımış, narsis xəstəliyinə tutulmuş zavallılar adamdan dilənçi payını da minnətlə alarlar - guya aldıqları sədəqəni özlərinin nəfi üçün yox, sədəqə verənin xeyri üçün, onun mərtəbəsini Allah yanında ucaltmaq, onun verdiyi qəpiyi ilahi administrasiyada sığorta pulu kimi qeydiyyatdan keçirmək üçün götürürlər. Onlar başqasına dəyən zərərin müqabilində ondan ziyana düşdüyünə (yəni günah özündə olduğuna) görə haqq istəyərlər, halallığını başına qaxmaq üçün düzlərin aldanışına sevinərlər, dürüst insanı əfəl, mağmın sayarlar. Onlar təmənnasız yaxşılığın düşmənidirlər, insanın heç bir nəf güdmədən yaxşılıq edə bilsəcəyinə dünyasında inanmazlar, ona görə də ya axtarıb o yaxşılığın arxasında duran gizli niyyəti "taparlar", ya da onu özlərindən uydurarlar. Onlar başqasına olunan yaxşılığı özlərinə vurulan zərbə kimi, ziyan kimi qavrayarlar, özgənin qazancını özlərinin iflası, başqasının ucalmasını özlərinin tənəzzülü sanarlar. Onlar insan əzabıyla qidalanarlar, bütün yaxşılara, yaxşılıqlara çirkab yaxmaqdan həzz alarlar.

Bir sözlə, onlar qarşılarına qoyulan dolu qabı boş qaba çevirəndən sonra o boşqabı içinə tüpürməmiş yiyəsinə qaytarmazlar. Bütün bunlarla bərabər özlərini hamıdan təmiz, hamıdan məğrur, hamıdan haqlı tutmağa çalışarlar. Qəhrəmanımızın kiçik qardaşı da belə tiplərdəndir - öz aləmində guya cənnətə gedir, fəqət getdiyi cənnəti ailəsi uğrunda oduna yaxıldığı cəhənnəm kimi qələmə verir.

***

Ancaq əsərin qəhrəmanı özü də xudbin emosiyalardan məhrum deyil, sadəcə, onun eqoizmi, necə deyərlər, xoşməramlı, xoşxassəlidir. O da başqalarının ondan asılı qalmağını, başqaları üzərində hökm sürməyi arzulayır, çünki sevgini yalnız bu yolla qazanmağın mümkünlüyünə inanır. Başqasının bədbəxtliyi onu da xoşbəxt eləyir, intəhası o, bədbəxtin başından basmaqla yox, bədbəxtə əl uzatmaqla, onu öz mərhəmətinə möhtac qoymaqla təskinlik, təsəlli tapır: "Demə, bütün ömrü boyu bunuca - kimlərinsə səndən asılı olduğunu, necəsə sənə ehtiyacı olduğunu hiss eləməkcə adama rahatlıq gətirirmiş. Çünki onda səni sevdiklərinə sözsüz-söhbətsiz inanırsanmış. Yəqin bu rahatlığa görə uşağı balaca vaxtı çox istəyirsən; bilirsən ki, döysən də, söysən də, səndən üzü dönməz, ətəyini buraxmaz, bir az sonra yenə üstünə qaçacaq, sənin qucağında kiriyəcək".

Bacısı itkin qardaşlarının oğlunun toyuna gedib qayıdandan sonra qəhrəmanımız intizarla gözləyir ki, bacı toyda onun yerinin göründüyündən yana-yana danışacaq, getmədiyinə görə onu ərkyana qınayıb kövrələcək. Onun təsəvvüründə Lüdmila da, oğlu da çətinliklə yaşayırdılar, mütləq əmi himayəsinə ehtiyacları vardı. Di gəl: "Bacısı getdi, qayıtdı, toydan, Lüdmilanın yaxşı güzəranından, toyda qardaşıyla görüşdüyündən ağızdolusu, sevinclə danışdı, xəbəri də yoxdu ki, o, içini yeyir, öz axmaqlığına gülür. Çünki əvvəllər Lüdmilanın, qardaşının həyatını asanca təsəvvürünə gətirirdi, təsəvvürünə gətirib hallarına acıyırdı, elə bilirdi onlar üçün dünyada hər şey itirilib, oturub-durub keçmiş günlərini xatırlayırlar, onları yaşadan, çəkib aparan da həmin günlərin sevincidi. Demə, belə fikirləşməklə, hallarına acımaqla təsəlli tapırmış, öz dərdsərilə təkbətək qalmamaq üçün başını qatırmış. Qardaşının qayıdacağından əlini üzdüyündən gündən-günə hələ lap xeyirxah olurdu, qardaşına lap yazığı gəlirdi, hətta qayıtmağını arzulayırdı, qayıtmayacağına inandığına görə arzulayırdı; atasının dəfninə də gəlməyən adam sonra nə üzlə qayıdacaqdı ki?!"

Göründüyü kimi, əsərin qəhrəmanı yaxşılığa, mərhəmətə, fədakarlığa eqosunun yemitək ehtiyac duyur, onun xudbinliyi heç də qardaşının eqoizmindən geri qalmır. Fərq burasındadır ki, qardaşının eqosu xudbin emosiyaların mənfi qütbündə, onun eqosu isə - müsbət qütbündə qərar tutub. Bu qardaş qütblər gecəylə gündüz, qarayla ağ kimi bir-birini tarazlayır, bir-birini tamamlayır, bir-birini yenidən yaradır. Doğrudan da, bu dünyanın xeyrişəri birini içəridən, o birini kənardan seyrə daldığımız, adlarını belə bilmədiyimiz bu iki qardaş qədər bir-birinə qardaşdır.

***

Əsər boyu qəhrəmanımız öz ömrünü gözdən keçirir, bir növ özünə hesabat verir, xatirələrini arıtlayır, olmuşlarla ola biləcəkləri tərəziyə qoyur: "Daha onu da bilirdi ki, eləyib-eləmədiklərinə görə özünü üzməyə dəyməz, çünki necə yaşasan da, vaxt özüylə peşmançılıq gətirir, anlayammırsan nə yaxşıdı - yanından ötüb keçdiyin, yoxsa çatdığın. Bu gün inandığına da sabah şübhə eləyirsən, əlin hər yerdən üzüləndə heç nədən yenə özünə bir ümid yaradırsan, indi də onun arxasına düşürsən. Bütün ömrü beləcə ümidlə şübhə arasında keçdi... Gərək bunları vaxtında başa düşəydi, yaddaşın unutqanlığına inanaydı, başa düşəydi ki, yalanla həqiqət eyni şeydi - hər şey olan anda həqiqətdi, bir an sonra yalan. Yalan olduğuna görə də olub keçəni öz ömrü kimi xatırlayammır, elə bil ayrı-ayrı illəri, günləri ayrı-ayrı adamlar yaşayıb..."

Əgər yalanla həqiqət eyni şeydirsə, bütün olanlar bir an sonra yalana çevrilirsə, deməli, həqiqət yoxdur, hər şey elə yalandır - yalan dünya, yalan həyat, yalan sevgilər... Bircə ölüm yalan deyil, gerçək olan tək ölümdür, fəqət o da yoxluq deməkdir - gerçək saydığımız şey əslində yoxdur. Onda belə çıxmırmı ki, həyatın iki üzündən biri kimi ölüm özü də yalandır? Axı yox bildiyin şeyi nə deyə var sayasan?..

Fəlsəfədən çox da xoşlanmayan müəllifin qayığı bu məqamda qədim yunan zahidlərinin toplaşdığı Stoya limanına yan alır. Stoiklər deyirdilər ki, insan doğulduğu gündən ölməklə məşğul olur, ötüb keçmiş illərimiz, yaşanmış ömrümüz artıq bizimki deyil, uşaqlığımız, gəncliyimiz də biz deyilik, çoxdan ölüb getmiş bir başqasıdır. Antik Roma filosofu, stoisizmin ən uca zirvəsi Seneka opponenti Lutsiliyə məktubunda yazırdı: "Bizim bədbəxtliyimiz ondadır ki, ölümü yalnız irəlidə görürük, amma ölümümüzün çoxu artıq geridə qalıb - axı ömrün ötüb keçmiş illəri ölümə məxsusdur".

Mövlana Cəlaləddin Rumi bu gerçəyi bir başqa cür ifadə eləyirdi: "Allah insanı hər nəfəsdə yenidən yaradır". Yəni bu nəfəsdə artıq bundan bir nəfəs əvvəlki adam deyilik, hər nəfəs alıb-verəndən sonra ölüb, aldığımız hər yeni nəfəsdə dünyaya yenidən gəlirik. Bu minvalla canlıların həyatı bir an ara vermədən özünü öldürməkdən, zamanın gözəgörünməz anlarını dəyirman kimi üyüdüb, şüursuz bir istəklə gələcəyə - ölümə can atmaqdan ibarətdir.

Ramiz Rövşən isə "Süd dişinin ağrısı" poemasında belə yazır:

Ayağımız yer tutandan eləcə
Adladıqca ildən-ilə ölürük.
Bu dünyada birdəfəlik ölüncə
Allah bilir neçə kərə ölürük.

Bir nazlı xanıma çevrilən kimi
bir gözəl qız ölür, mənim balam.
Bığ yeri tərləyən kimi
bir dəcəl uşaq ölür.
Bu dünyada az yaşayan
az ölür, mənim balam,
Bu dünyada çox yaşayan çox ölür.

Görən olmur ölənlərin qanını,
Biz ki sağıq, sağ adama kim ağlar?
Kim nə bilir,
əl-ayağı tir-tir əsən bu qarı
bir nazlı xanımın alıb canını,
Bu yazıq qocanın donqar belində
ucaboylu bir cavanın qəbri var...

***

"Fevral"ın məchul qəhrəmanı da həyatının mərhələlərini ayrı-ayrı adamların ömür kitabından fəsillər kimi xatırlayır:

"...Ayrı bir adam haçansa uşaq olmuşdu, səhər-səhər yerindən durub yuxulu-yuxulu ata-anasının yanına qaçmağı xoşlayırdı, aralarında uzanıb nazlanırdı, xətrinə dəyəndə, nədənsə inciyəndə acıq eləyib küsürdü, bilirdi ki, gəlib könlünü alacaqlar, qılığına girəcəklər, əvvəlkindən daha çox əzizləyəcəklər...

...Bir dəfə evdə adam çox olduğundan Vəliylə onu yatızdırmağa qonşuya apardılar. Onların da tək qalmaq ürəklərindəniydi; yerlərinin içində oynayırdılar, gülürdülər, yastıqları bir-birinə tullayırdılar. Qəfil ataları otağa girdi, acıqlı-acıqlı üstlərinə qışqırdı ki, sakit olsunlar, gülməsinlər! İkisi də elə bil bir himə bəndiydilər, səssəsə verib ağladılar. Onda ataları da durub-durub birdəncə ağladı, onları qucaqlayıb, ağlayın, dedi, siz də ağlayın, ananız ölüb...

**davamı növbəti sayımızda**



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# İkiqat sevinc...

## Kəlbəcərə daha 27 ailə yola salınıb

Kəlbəcər təkcə Azərbaycanın coğrafi sərhədləri daxilində yerləşən bir rayon deyil, eyni zamanda ölkəmizin tarixində mühüm yer tutan, mədəniyyətin simvolu olan bir ərazi olaraq yaddaşlarda qalır. 1993-cü ilin aprel ayında erməni işğalçıları tərəfindən zəbt edilən bu rayon xalqımızın qəlbində dərin izlər buraxıb. 2020-ci ilin noyabrında isə 27 illik həsrətə son qoyuldu, Kəlbəcər yenidən Azərbaycana qaytarıldı.

Kəlbəcər həm də təbii gözəllikləri ilə tanınır. Rayon zəngin flora və faunaya malikdir, eyni zamanda Azərbaycanın mədəni irsini əks etdirən çoxsaylı tarixi abidələri var. Bölgənin bərpası, yalnız yerli əhalinin qayğıları ilə deyil, həm də Azərbaycanın mədəni və ekoloji irsinin qorunması ilə bağlı geniş miqyaslı layihələri ehtiva edir.

**Mənəvi və milli dirçəlişin simvolu!**

Xatırladaq ki, Kəlbəcərə ilk köç bu il avqustun 21-də reallaşıb. Bu köçün baş tutması Azərbaycanın “Böyük Qayıdış” prosesində növbəti strateji mərhələyə qədəm qoyduğunu göstərdi. Kəlbəcərin məhz şəhər mərkəzinə ilk sakinlərin qayıdışı təkcə fiziki qayıdış deyil, həm də mənəvi və milli dirçəlişin simvoludur. Bu addım bir tərəfdən həmin bölgələrin dayanıqlı inkişaf modelinə keçidini nümayiş etdirir, digər tərəfdən, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən dövlət siyasətinin səmərəli və planlı şəkildə icra olunduğunu sübut edir.

Dünən növbəti köç karvanı Kəlbəcərə yola salınıb. Şəhərə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu mərhələdə Kəlbəcər şəhərinə 27 ailə (112 nəfər) köçürülüb.

**İlk dəfə...**

İki gün öncə - noyabrın 25-də Kəlbəcərdə ilk dəfə Şəhər Günü keçirilib. Məlumdur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində hərbi və siyasi müstəvilərdə qazanılan qələbələr sayəsində 2020-ci ilin 25 noyabr tarixində Kəlbəcər rayonu işğaldan azad edilib. Dövlət başçısının 31 iyul 2023-cü il tarixli sərəncamı ilə 25 noyabr Kəlbəcər Şəhəri Günü kimi qeyd olunur.

Kəlbəcər Gününün qeyd olunması həm də gələcəyə bir baxışdır. Bu gün Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və daha güclü bir dövlətin inşası yolunda atılan mühüm addımlardan biridir. Kəlbəcər sakinlərinin geri dönməsi bir çox mənada ərazi bütövlüyümüz uğrunda mübarizənin və qalibiyyətin rəmzi olaraq yaddaşlarda qalacaq.

Bu əlamətdar günün qeyd olunmasının sabahısı növbəti köç karvanının yola salınması isə ikiqat sevincə səbəb oldu. Kəlbəcər sakinləri hərtərəfli dəstək üçün ölkə başçısına dərin minnətdarlıqlarını ifadə edərək, şəhidlərimizə rəhmət, qazilərimizə isə cansağlığı diləyiblər. Onların sevincinin həddi-hüdudu yoxdur.

Bundan sonra Kəlbəcər üçün ən böyük vəzifə işğaldan əvvəlki həyatın bərpasıdır. İqtisadiyyatın inkişafı, təhsil və səhiyyə sahələrinin gücləndirilməsi, ekologiyanın qorunması və mədəniyyətin yaşadılması bu prosesin əsas istiqamətləri olacaq. Həmçinin Kəlbəcərin təbii gözəlliklərini və tarixi abidələrini qoruyub saxlamaq, gələcək nəsillərə ən yaxşı şəkildə təqdim etmək böyük əhəmiyyət kəsb edir.

*Yeganə BAYRAMOVA*

# Uğurlu vəhdət!

Cəmiyyətin hər bir üzvü gündəlik həyatda ictimai maraqların müdafiəsi ilə qarşılaşır. Amma fərdi maraqlarla yanaşı, dövlət maraqlarının müdafiəsi də davamlı inkişafı üçün təməl rolunu oynayır. Kimliyindən asılı olmayaraq, vətəndaşların ən başlıca vəzifəsi dövlət maraqlarını müdafiə etməkdir. Bir sözlə, hər bir ölkə, xalq üçün ictimai maraqlarla bərabər, dövlət maraqları da ön planda olmalıdır.

Bu məsələlərdə kiçik bir fikir ayrılığı sonda ölkə üçün ciddi problemlərə yol aça bilər. Dövlət maraqları müdafiə olunmasa, ölkənin suverenliyi, təhlükəsizliyi təhdid altına düşmüş olar. Dünyada baş verən siyasi-iqtisadi proseslər, geosiyasi dəyişikliklər, dövlət və ictimai maraqların mahiyyəti və təmin olunması ilə bağlı ortaya real çağırışlar qoyur.



## İctimai və dövlət maraqlarının sintezi...

### Bu cəmiyyətlər daha dayanıqlı olur...

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən millət vəkili Məşhur Məmmədov bildirib ki, müasir dünyada ictimai və dövlət maraqlarının müdafiəsi naminə vətəndaş həmrəyliyinin əldə edilməsi ən önəmli nüanslardan biridir: “Hansı dövlətlərdə ki, ictimai və dövlət maraqları naminə vətəndaşlar tək yumruq olmağı bacarır, eyni zamanda xalq-dövlət birliyi modeli uğurla tətbiq olunur, həmin dövlətlər qlobalist şüurların kataklizmlərindən uğurla çıxa bilir. Həmin cəmiyyətlər həm də daha dayanıqlı olur, dövlətlərdə ictimai-siyasi sabitlik uzun illər xalqın təhlükəsiz şəraitdə yaşamasına rəvac verir. İctimai və dövlət maraqlarının müdafiəsi kontekstində vətəndaş həmrəyliyinin təmin edilməsi, həm də insanların təhlükəsiz şəraitdə yaşamağa olan inam və etiqadını daha da gücləndirmiş olur”.

### Ölkəmizin uğurlu modeli...

Deputat qeyd edib ki, Azərbaycan ictimai və dövlət maraqlarının təmin edilməsi sahəsində kifayət qədər uğurlu model formalaşdıra bilib: “Bu gün dövlətin milli mənsubiyyətindən, dini inancından asılı olmayaraq, bütün vətəndaşlar üçün tolerant mühit formalaşdırması, eyni zamanda inanc fərqliliyinə baxmayaraq, hər kəsə bərabərhüquqlu vətəndaş kimi yanaşması dövlətə olan sevginin artması ilə müşahidə edilir. Azərbaycanda xalq-dövlət birliyi, ictimai və dövlət maraqları kontekstində informasiya müharibəsində hər kəsin bir əsgər kimi fəal olması, beynəlxalq mediada, sosial şəbəkələrdə ölkəmizə qarşı informasiya hücumlarında hər kəs aktiv şəkildə dövlətin müdafiəçisi qismində çıxış edir. Hesab edirəm ki, bu gün Azərbaycan vətəndaşının dövlətin taleyində önəmli məsələlərdə göstərdiyi sücaət, milli birlik modeli indiki həssas dövrdə dünyanın bir çox cəmiyyətlərinə örnək ola bilər. Bu baxımdan Azərbaycanda olan mühit dünya dövlətləri üçün də dərs çıxarılası vəziyyətdir”.


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti üzrə hazırlanmışdır**


### Xalqımız mənəvi dəyərlərimizə sayğı göstərir

Millət vəkilinin sözlərinə görə, hər kəsə bəllidir ki, Prezident tərəfindən milli və dövlət maraqlarının qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir: “Fikrimcə, hər bir vətəndaş siyasi mövqeyindən asılı olmayaraq, öz dövlətinin milli maraqlarını qorumalıdır. Çünki dövlət maraqları müdafiə olunmadığı təqdirdə, ictimai maraqların da qorunması mümkün deyil. Sevindirici haldır ki, bu gün xalqımız mənəvi dəyərlərimizə, o cümlədən dövlətə, onun atributlarına və simvollarına böyük diqqət, qayğı və sayğı göstərir. Bütün bunlar da aparılan təbliğatın nəticəsidir. Milli maraq Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, həmçinin insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur. Nəzərə alsaq ki, müasir Azərbaycan sosiumu intellektual əsaslarda formalaşmış modern bir cəmiyyət kimi xarakterizə olunur. O zaman əminliklə söyləyə bilərik ki, Azərbaycan cəmiyyəti ictimai maraq və dövlət marağı məfhumlarının mahiyyətini dərk edən, bu mövqeyi ictimai, siyasi münasibətlərdə və dövlətlə əlaqələrində nümayiş etdirməyi bacaran, formalaşmış bir yetkin cəmiyyətdir. Bu isə ictimai maraqlarımızın yaşaması deməkdir.

İctimai və dövlət maraqlarında xalqı ayırmaq mümkün deyil. Azərbaycan bu baxımdan vahid mövqeyə və sarsılmaz birliyə sahibdir. Bundan sonrakı dönəmlər üçün də bu amil əsas götürülməlidir. Bütün ictimai-siyasi təşkilatlar da bu məsələdə aktiv olmalı, ictimai və dövlət maraqlarının müdafiəsində ön sıralarda dayanmalıdır”.

*Yeganə*

# Minnətdarlıq duyğusu...

## Şükranlıq bayramının maraqlı ənənələri

Xarici KİV-lərin məlumatına görə, ABŞ Prezidenti Donald Trampla ukraynalı həmkarı Volodimir Zelenski Şükranlıq bayramı ərfəsində görüşə bilər. Qeyd olunub ki, Zelenski müharibənin bitməsi şərtləri ilə bağlı birgə ABŞ-Ukrayna razılaşmasını yekunlaşdırmaq üçün Trampla mümkün qədər tez, hətta bayram zamanı görüşmək istəyir. Ağ Evdən bildirilib ki, Tramp çərşənbə axşamı Şükranlıq bayramı üçün Vaşinqtondan ayrılacaq. O, bazar gününə qədər Floridadakı iqamətgahında qalmağı planlaşdırır. Bu informasiyalar bizim cəmiyyətdə sözügedən Şükranlıq bayramı haqqında bəzi suallar yaradır. Amerikalıların bu bayramı nə vaxt və necə keçirilir? Bu suallara aydınlıq gətirmək üçün bu gün Amerikada, o cümlədən Kanadada qeyd edilən Şükranlıq bayramı haqqında məlumatları diqqətinizə çatdırırıq.

### Şükranlıq Gününün tarixi

Şükranlıq Günü Amerikada hər il noyabr ayının dördüncü cümə axşamı günü qeyd edilən federal bayramdır. Bu tarix 1941-ci ildə ölkə üzrə vahid şəkildə təyin olunub. 19-cu əsrin sonlarından etibarən isə 1621-ci ildə baş tutan Püritan hacıların məhsul yığımı festivalı ilə əlaqələndirilir. Bayramın əsas mahiyyəti adından da göründüyü kimi, Allaha şükr etməkdən ibarətdir.

1619-1620-ci illərdə bu qitəyə gəlmiş ilk sakinlərin yarısı sərt qış şəraitinə dözməyərək soyuqdan və xəstəliklərdən həlak olub. Qalan gəlmələr yerli hindilərin köməyi ilə salamat qalıblar. Hindilər onlara yerli bitkiləri yetişdirmək və daşlı-çınqıllı torpağı məhsuldar vəziyyətə gətirmək yollarını öyrədiblər. İlk amerikalılar yaxşı məhsul əldə edəndən sonra Tanrıya şükür etməyi və yerli hindilərlə bərabər bayram keçirməyi qərara alıblar.

İlk bayramda gəlmələrə salamat qalmaq sirlərini öyrətmiş Vampanoaqi xalqının (yerli hindilərin) nümayəndələri də iştirak ediblər. 1863-cü il oktyabrın 3-də isə prezident Avraam Linkoln Şükranlıq Gününü dövlət bayramı elan edib.



### Qara Cümə

Bayramın başqa bir atributu ənənəvi geyim paradlarıdır. İlk belə parad 1924-cü ildə Detroytda keçirilib. Ən məşhur parad hər il Nyu-Yorkda keçirilir. Ən böyük mağazalar şəbəkəsi “Macy’s” tərəfindən təşkil olunur. 1952-ci ildən bəri parad televiziyada yayımlanır. Şükranlıq Günündən sonra ənənəvi Milad satışlarının açılışı ölkənin bütün mağazalarında baş verir. 1960-cı illərdən bəri bu gün də Qara Cümə kimi tanınır.

### Hind toyuğunun əfvi...

Hər il Şükranlıq Günü bayramı ərəfəsində Ağ Evdə ABŞ prezidentinə hind toyuğu təqdim edilməsi də ənənə halını alıb. Bu mərasim zamanı prezident Amerika xalqını ənənəvi Şükranlıq bayramı münasibətilə təbrik edir və hind toyuğunun rəmzi olaraq əfv edilməsi barədə qərar imzalayır.

ABŞ prezidentinə hind toyuğunun təqdim edilməsi ənənəsi 1947-ci ildə, prezident Trumenin dövründə başlanıb. Əfv mərasiminin başlanğıcı isə 1987-ci ildə, prezident Ronald Reyqanın dövründə qoyulub.

### Bayramın maraqlı adətləri...

Bayramın əsas atributu ailə və dostlarla birlikdə Şükran Günü şam yeməyidir. Bu yemək adətən Yeni İngiltərə bölgəsinə aid məhsullardan ibarət olur: hinduşka, kartof, balqabaq, qarğıdalı, yaşıl lobya, zoğal və balqabaq piroqu. Son illərdə bu menyuya ABŞ-ın müxtəlif bölgələrindən gələn yeməklər də əlavə olunub, məsələn, cənub ştatlarında pekan qozu piroqu, Böyük Göllər regionunda isə düyü ilə hazırlanan dolma məşhurdur.

### Qabl və Vadl azad edildi...

Bugünlərdə ABŞ-da Ağ Evdə Şükranlıq bayramı ilə əlaqədar ənənəvi hind toyuğunun bağışlanması mərasimi keçirilib. ABŞ Prezidenti Donald Tramp çıxış edərək xalqı bayram münasibətilə təbrik edib və daha sonra Qabl və Vadl adlı hind toyuqlarını əfv edib. Bu il bayram süfrəsində olmayacaq quşlar geriyə - Şimali Karolinaya göndəriləcək.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4997
Sifariş: 2403
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova